www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20-22 yanvar 2017-ci il Cümə № 13 (6627) Qiyməti 60 qəpik

Xəbər

**Ağcabədidə ana və körpəsi doğuş zamanı öldü**

yazısı səh.6-da

Gündəm

**20 Yanvarın 27-ci ili-qəhrəmanlıq salnaməsi günü...**



1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu Azərbaycan xalqına qarşı qırğın törədib; Bu gün saat 12.00-da ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, gəmilər, avtomobillər və qatarlar səs siqnalları verəcək

yazısı səh.5-də

## MTN generallarının daha bir qalmaqallı məhkəməsi başlayır

# ELDAR MAHMUDOV ÜÇ GENERALINI NECƏ XİLAS EDİR - SENSASİON TƏFƏRRÜATLAR

Ləğv olunmuş MTN-in generalları - Sübahir Qurbanov, Teymur Quliyev və Natəvan Mirvətova məhkəməyə gətirildi; əsasən qanunsuz dinləmələrin araşdırılacağı prosesdə nələr gözlənilir...




yazısı səh.3-də

## Milli Məclisdə deputatlar arasında kəskin müzakirələr

Deputat Vahid Əhmədov Rəqabət Məcəlləsinin qəbul edilməməsinə görə parlamenti qınadı, PA-ya da tənqidlər səsləndi; Tahir Kərimli isə dövlət qurumlarına etiraz etdi

yazısı səh.7-də

**Qarabağ konfliktinin açarı kimdədir - köhnə sual yenidən gündəmdə**

yazısı səh.11-də

**Lavrovun bəyanatına vitse-spikerdən etiraz-Rusiya nədən narazıdır...**

yazısı səh.10-da

**İstintaq səfiri öldürənin arxasındakı adamı axtarır**

yazısı səh.13-də

**Rus ekspertin məmurlar haqda şok iddiasına sərt təpki**

yazısı səh.7-də

**İsrail Lapşinə üzrxahlıq yazdırıb-blogger bağışlana bilər**

yazısı səh.13-də

**Əməkdaşımız Bakı Hava limanı yaxınlığında yaşayanların durumundan yazır**

yazısı səh.14-də

**İŞİD-ə qoşulan azərbaycanlılar vətəndaşlıqdan çıxarılıb-rəsmi**

yazısı səh.13-də

**Davos forumu Azərbaycan iqtisadiyyatını xilas edəcəkmi?**

yazısı səh.12-də

**Hökumət dollara "həddini bildirdi"- 2 manat...**

yazısı səh.12-də

**Şəhid hərbçimizin nəşini düşməndən geri almağın yolu...**

yazısı səh.6-da



**Əli İnsanovun vergi borcunu silib özünü həbsdə saxladılar-anlaşma iddiaları**

yazısı səh.10-da



**Müxalifət lideri bahalığa görə...xalqı suçladı**

yazısı səh.4-də



*Millət vəkili Qənirə Paşayeva::*

**"Həyatda heç zaman siyasi ambisiyalarım olmayıb"**

yazısı səh. 8 və 9-da

YENİ MÜSAVAT
N 13 (6627) 20 yanvar 2017




# Vitse-admiralın məhkəməsi təxirə düşüb

**Yanvarın 19-da Nəsimi Rayon Məhkəməsində Müdafiə Nazirliyi Hərbi Dəniz Qüvvələrinin (HDQ) sabiq komandanı, vitse-admiral Şahin Sultanovun cinayət işi üzrə keçirilməli olan məhkəmə prosesi təxirə salınıb.**

Virtualaz.org saytının xəbərinə görə, buna səbəb məhkəməyə sədrlik edən hakim Həbib Həsənovun işlərinin çoxluğu olub.

Məhkəmə prosesi yanvarın 27-də davam etdiriləcək.

Xatırladaq ki, dövlət ittihamçısı çıxışında Ş.Sultanovun 13 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Növbəti məhkəmə proseisndə vitse-admiral son söz deyəcək.

Qeyd edək ki, Respublika Hərbi Prokurorluğunun yaydığı məlumata görə, HDQ-də aparılan yoxlamalar zamanı qanun pozuntuları aşkarlanıb. Qanunazidd əməllər törətməkdə təqsirli bilinən bir neçə nəfər, eləcə də HDQ-nin sabiq komandanı, vitse-admiral Ş.Sultanov təqsirləndirilən şəxs qismində cəlb edilməklə, Respublika Hərbi Prokurorluğunun təqdimatı əsasında 2015-ci il aprelin 23-də Bakı Hərbi Məhkəməsinin qərarı ilə barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Ş.Sultanov Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) və 179.3.2-ci (mənimsəmə - külli miqdarda törədildikdə) maddələri ilə təqsirli bilinir. Bir müddət əvvəl Bakı Hərbi Məhkəməsində Ş.Sultanov barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunmasına dair vəsatətə baxılıb. Prosesdə həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması barədə qərar qəbul edilib və o, azadlığa buraxılıb.

Onu da qeyd edək ki, Bakı Hərbi Məhkəməsində böyük iclas zalı olmadığından işə Nəsimi Rayon Məhkəməsinin inzibati binasında baxılır.



# Bakıda sulu qar yağacaq

**Yanvarın 20-də Bakıda və Abşeron yarımadasında tutqun hava şəraiti üstünlük təşkil edəcək. Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi ərazilərində sulu qara keçəcəyi ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi günün ikinci yarısında şimal-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturunun yarımadada gecə 1-3°, gündüz 4-6°, Bakıda gecə 1-3°, gündüz 4-6° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında isə sabah bəzi yerlərdə arabir yağış, sulu qar, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Gündüz qərb rayonlarından başlayaraq yağıntı tədricən kəsiləcək. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-8° isti, dağlarda gecə 2-7° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı gözlənilir.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Rüstəm İbrahimbəyovun müxalifətə dönüşü

Milli Şuranın fəxri sədri Cəmil Həsənliyə yazdığı təbrikdə müxalifət liderlərinin bostanına daş atıb; o, demokratik düşərgənin lideri kimi yalnız tarixçi alimi görür...

**2013-cü ilin prezident seçkiləri ərəfəsində Azərbaycan siyasətinin əsas simasına çevrilən Milli Şuranın fəxri sədri, kinorejissor Rüstəm İbrahimbəyov uzun müddət idi ki, siyasətdən tam çəkilmişdi. Yanvarın 15-də kinorejissor bir yazısı ilə siyasətdə olduğu barədə yenidən mesaj verib.**



Milli Şura sədri, tarixçi professor Cəmil Həsənlinin 65 yaşının tamam olması ilə bağlı yazısı adi bir təbrikə bənzəsə də, məktubun içərisində siyasi notlar çoxdur. Sanki kinorejissor Milli Şuranın fəxri sədri olmasını yaddaşlarda təzələmək, son illərdə passivliyi ilə insanların yaddaşından silinən ismini yenidən geri qaytarmağa cəhd edib. R.İbrahimbəyov ölkədə "möhkəmlənmiş rejimin" olmasından söz açıb və tarixçi professorun mövcud quruluşla üz-üzə qaldığını vurğulayıb və ona olan təhlükələrə işarə vurub. Belə təhlükələrin amansız yatırılma faktları ilə təsdiq olunduğunu kinorejissor qeyd edir. R.İbrahimbəyov ölkənin müxalifət liderlərinin bostanına daş atmağı da unutmayıb. Milli Şuranın fəxri sədri C.Həsənlini demokratik düşərgənin lideri kimi qələmə verərək, onun fəaliyyətinin ölkənin tarixinə düşəcəyindən əminliyini dilə gətirib. Kinorejissor Milli Şura sədrindən sitat da gətirib və deyib ki, "haqlısan, gələcək nəsillər çoxlarının susduğu vaxtda həqiqəti deyənlərin adlarını bilməlidir".

Kinorejissor əslində təbrikindəki bu cümlələrlə Milli Şurada təmsil olunmasına baxmayaraq, özünü Azərbaycan müxalifətinin lideri sayan AXCP sədri Əli Kərimliyə də mesaj ünvanlayıb və lider kimi tarixçi alimi gördüyünü etiraf edib. Heç şübhəsiz ki, bu məktub Milli Şura daxilində olan AXCP tərəfdarlarını da qıcıqlandırmaya bilməz. Bunun da nəticələrini görmək üçün qarşıdakı zamanı gözləməyimiz kifayət edir...

Xatırladaq ki, R.İbrahimbəyov 2013-cü ilin əvvəllərində rəhbərlik etdiyi Kinematoqrafçılar İttifaqına vergidən yayınma maddəsi ilə iş açıldığı üçün ölkəni tərk edib. Həmin ilin sonlarında keçirilən prezident seçkiləri ərəfəsində prezidentlik eşqinə düşən kinorejissorun təklifi ilə Rusiyanın projesi olduğu iddia olunan Milli Şura yaradılıb. Ölkənin əsas ana müxalifət partiyaları bu qurum ətrafında birləşərək, onun vahid namizədliyinə çalışsalar da, kinorejissor barəsindəki cinayət işi ilə bağlı ölkəyə gələ bilməmiş, nəticədə C.Həsənli demokratik düşərgənin seçkilərdəki vahid namizədi olmuşdu. Bundan sonra R.İbrahimbəyovun ötən ilin martında qardaşı, xalq yazıçısı Maqsud İbrahimbəyovun ölümündən sonra müvəqqəti Azərbaycana gəlişinə icazə verilib. Lakin o, qardaşının yas mərasiminin ertəsi gün ölkəni tərk edib.

❑ **Cavanşir ABBASLI**




# "Kapital Bank"ın İdarə Heyətinin sədr müavini "PAŞA Holdinq"ə keçir

**"Kapital Bank"ın İdarə Heyəti sədrinin birinci müavini Fərid Məmmədov fevral ayından "PAŞA Holdinq"in biznes qrupu üzrə direktoru və holdinqin icracı direktorunun müavini vəzifəsində fəaliyyətini davam etdirəcək. Bu barədə bankdan verilən məlumatda deyilir.**

# 53 yaşlı Lənkəran sakini bıçaqlanıb

**Lənkəranda bıçaqlanma hadisəsi baş verib. Hadisə Liman şəhərində olub.**

1964-cü il təvəllüdlü Gülbaba Fail oğlu Hüseynov bıçaq yarası ilə Lənkəran Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb və əməliyyata götürülüb.

Hadisəni törədən şəxs və ya şəxslər barədə hələlik məlumat yoxdur.

Faktla bağlı araşdırma aparılır. (APA)



# Qızını qətlə yetirməkdə şübhəli bilinən ata azadlığa buraxılıb

**Virtualaz.org saytının Şirvan bürosunun məlumatına görə, 5 ay əvvəl qızını qətlə yetirməkdə şübhəli bilinərək saxlanılmış ata günahsız olduğu üçün cinayət işini aparan müstəntiqin qərarı ilə azadlığa buraxılıb.**

Ötən il avqustun 21-dən 22-nə keçən gecə Salyan şəhəri, Təbriz Xəlilbəyli küçəsindəki yaşayan 33 yaşlı Qurbanova Gülnar Eldar qızının həmin evdə meyiti tapılmışdı. Hadisədən 3 gün sonra qadının atası - 65 yaşlı Eldar Əliheydər oğlu Qurbanov şübhəli şəxs qismində məsuliyyətə cəlb olunaraq saxlanılmışdı. Belə ki, əvvəllər də məhkumluq həyatı yaşamış ata özü və digər ailə üzvləri qətlin məhz onun tərəfindən törədildiyini bildirmişdilər. Onun qızını şəxsi münasibətlər zəminində iplə boğaraq qətlə yetirdiyi deyilirdi.

Amma sonradan rayonun hüquq-mühafizə orqanlarının həyata keçirdikləri istintaq-əməliyyat tədbirləri nəticəsində yaşadığı evdə meyiti tapılan qadını atasının yox, bacısının əri - 1980-cı ildə anadan olmuş Əhədov Anar Məmmədağa oğlu tərəfindən şəxsi münasibətlər zəminində boğularaq öldürüldüyü məlum olub və o, şübhəli şəxs qismində saxlanılıb.

Qızını qətlə yetirməkdə şübhəli bilənərək 5 ay əvvəl saxlanılmış Eldar Qurbanov isə Salyan Rayon Prokurorluğunda davam etdirilən istintaqın nəticələrinə görə azadlığa buraxılıb.

Qeyd edək ki, istintaq həqiqəti ortaya çıxarmasaydı, barəsində Cinayət Məcəlləsinin qəsdən adam öldürmə maddəsi isə cinayət işi başlanmış 65 yaşlı Eldar Qurbanovu 14 ildən 20 ilədək həbs cəzası gözləyirdi.

Cinayət faktı ilə bağlı Salyan Rayon Prokurorluğunda istintaq davam etdirilir.

# AŞ PA həmməruzəçiləri bəyanat yayıblar

**AŞ PA-nın Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Stefan Şennak və Sezar Florin Preda yanvarın 12-14-də Azərbaycana faktaraşdırıcı səfərləri ilə bağlı bəyanat yayıblar.**

AŞ PA-nın saytında verilən məlumata əsasən, bəyanatda bildirilir ki, islahatlar prosesinə yeni impuls vermək, xüsusilə məhkəmə, media azadlığı, insan haqları və QHT-lərlə bağlı qanunvericilik sistemində hakimiyyətlə dialoqa təkan vermək son dərəcə vacibdir: "Biz Azərbaycan hökuməti və vətəndaşlarla bu islahatları müəyyənləşdirmək və həyata keçirmək sahəsində əməkdaşlıq etməyə hazırıq".

# Bəşər Əsəd Trampa ümid edir

**Suriya prezidenti Bəşər Əsəd ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın ölkəsinin terrorçuluğa qarşı apardığı mübarizədə müttəfiqi olacağına ümid edir.**

"RİA Novosti" xəbər verir ki, bunu o, Yaponiyanın TBS telekanalına müsahibəsində deyib.

"Biz ümid edirik ki, ABŞ-ın yeni administrasiyası terrorçuluqla bağlı verdiyi bəyanatlarda səmimidir, çünki bu problem təkcə Yaxın Şərqdə yox, bütün dünyada var. Düşünürük ki, Tramp administrasiyasının regionda terrorçuluqla mübarizədə gerçək koalisiyanın yaradılması barədə bəyanatları səmimi idi. Əlbəttə ki, bu koalisiyaya Suriya da daxil olmalıdır", - deyə o bildirib.

# "Nardaran işi" ilə bağlı daha bir məhkəmə başlayıb

**Bakının Nardaran qəsəbəsində baş vermiş insidentlə bağlı saxlanılan Zülfüqar Mikayılov, Elman Ağayev və digər 10 nəfərin cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

APA-nın məlumatına görə, hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən hazırlıq iclasında təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Təqsirləndirilən şəxslərin bəzilərinin hüquqlarını müdafiə edən vəkillər olmadıqları üçün proses təxirə salınıb.

Hazırlıq iclası yanvarın 30-da davam etdiriləcək.

Qeyd edək ki, 2015-ci il noyabrın 26-da Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları Nardaran qəsəbəsində keçirdiyi əməliyyat nəticəsində "Müsəlman Birliyi" hərəkatının rəhbəri Taleh Kamil oğlu Bağırov, Elman Seydəmir oğlu Ağayev, Zülfüqar Sədrəddin oğlu və digərləri saxlanılıb.

Əməliyyat zamanı 2 polis əməkdaşı, 4 qəsəbə sakini həlak olub.

Nardaran hadisələri ilə bağlı saxlanılan şəxslərin cinayət işi üzrə istintaq bir neçə yerə ayrılıb. Onlardan Taleh Bağırov və digər 18 nəfərin cinayət işi üzrə hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində proses keçirilir. Taleh Bağırovun müavini olan Elçin Qasımov və digər 12 nəfərin cinayət işi üzrə istintaq isə bir müddət əvvəl yekunlaşıb. Onların da məhkəmə prosesi davam edir.

YENİ MÜSAVAT
N 13 (6627) 20 yanvar 2017

# MTN generallarının daha bir qalmaqallı məhkəməsi başlayır

**Yanvarın 19-da Sabunçu Rayon Məhkəməsində Bakı Hərbi Məhkəməsinin hakimi Həbib Həsənovun sədrliyi ilə Eldar Mahmudovun generallarının bir qisminin də məhkəməsi başlayıb. Məhkəmə qarşısına ləğv edilmiş MTN-in sabiq baş idarə və idarə rəisləri olan generallar - Sübahir Qurbanov, Teymur Quliyev, Natəvan Mirvətova və qurumun vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizov çıxarılıblar.**




## Eldar Mahmudov üç generalını necə xilas edir - sensasion təfərrüatlar

### Ləğv olunmuş MTN-in generalları - Sübahir Qurbanov, Teymur Quliyev və Natəvan Mirvətova məhkəməyə gətirildi; əsasən qanunsuz dinləmələrin araşdırılacağı prosesdə nələr gözlənilir?

Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun dövlət qurumlarını öz təsiri altına salmasında, var-dövlət toplamasında bu şəxslərin müstəsna rolları var. Əlləri vəzifə səlahiyyətlərinin verdiyi imkanlardan dolayı hər kəsi dinləməyə yetib və gizli yolla əldə etdikləri informasiyanı şəxsi maraqlarını təmin etmək üçün istifadədən çəkinməyiblər.

MTN-in "qara qutusu" hesab olunan Monitorinq Mərkəzindən informasiyalar sakitcə kənara axıdılıb və həmin informasiyaların aid olduğu şəxslər - iş adamları, zavod direktorları, bazar sahibləri, nazirlər, nazir müavinləri, komitə sədrləri və müavinləri, Mərkəzi Bank rəhbərliyindən tutmuş ölkədə fəaliyyət göstərən əksər bankların rəhbər işçiləri və daha kimlər "məhşər ayağına" çəkiliblər. Beləcə, gizli yolla əldə olunan şəxsi informasiyalardan sui-istifadə edərək, böyük pullara sahib olan şəxslərin cibini, həm də dilini kəsiblər. Danışan, etiraz edən olmayıb. Ola da bilməzdi. O səbəbdən ki, gizli informasiyalar üzə çıxar, "məhşər ayağına" çəkilənlər daha böyük itkilərlə üz-üzə qalar, azadlıqlarını da itirə bilərdilər. Mahmudovun dəstəsinin uzun illər ayaqda qalmasının bir sirri də məhz budur.

Mahmudovun vəzifəsini itirməsi də elə bu gizli - qanunsuz dinləmələrə görədir. Bunu ilk gündən onun generallarına verilən ittihamlar sırasında yer alan Cinayət Məcəlləsinin 302.1, 302.2 - gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma - maddəsi də bir daha təsdiqləyir.

Bu gün məhkəmə qarşısında olan Sübahir Qurbanov, Teymur Quliyev, Natəvan Mürvətovanın ibtidai istintaqdakı ifadələrində çəkinmədən "bizə gizli dinləmələri həyata keçirmək göstərişini Eldar Mahmudov verib" demələri də təsadüfi sayıla bilməz.

Belə görünür ki, Mahmudovun təqdimatı ilə çiyinlərinə general rütbəsi taxılan təqsirləndirilənlər öncədən günlərin birində cavab verməli olacaqlarının fərqində olublar. Hətta mümkündür ki, Eldar Mahmudovun özü ilə bu mövzuda söhbətləri olub. Sabiq nazirin əlaltılarına narahat olmaları üçün əsas olmadığını, bəd ayaqda bütün məsuliyyəti öz üzərinə çəkəcəyini söyləməsi də iddialar r sırasında yer alıb.

Odur ki, illərlə gizli-qanunsuz dinləmələr baş tutub, əldə etdikləri məlumatlardan şəxsi məqsədləri üçün istifadə ediblər. Varlanıblar, milyonlarının sayını günbəgün artırıblar. 11 ildə dövlətin maraqları, necə deyərlər, ayaqlar altına atılıb.

Nəhayətdə həbs olunublar, əmlaklarının bir hissəsi əldən gedib, vəzifələrini, azadlıqlarını itiriblər. Amma milyonlarının hamısını istintaqın onların əlindən aldığını söyləmək də haqsızlıq olar. Nədən ki, bu adamlar gec-tez həbs ediləcəklərini, əməllərinin cinayət olduğunu bilməmiş olmayıblar. Oğurluqla qazandıqlarından gizlətdikləri də olmamış deyil. Bu gün Eldar Mahmudovun azadlıqda qalması həm də əlaltılarının vəziyyətini yaxşılaşdırır. Fakt bundan ibarətdir ki, əlaltıları - bugünkü arestant generallar çəkinmədən onun adını istintaqa deyirlər.

Nə baş verir? Eldar Mahmudovun çiyinlərinə general rütbəsi, yaxalarına orden-medal taxdığı bu şəxslər öz şeflərini niyə belə asanlıqla "rasxod"a verirlər? Belə görünür ki, Eldar Mahmudov əlaltılarına öz adını çəkməsinə icazə verib. Bu yolla o, öz generallarını xilas edir və faktiki olaraq istintaqı "kor dalan"a yönləndirir. Əgər generallar istintaqın qanunsuz hesab etdiyi bir əməlin baş tutmasına Eldar Mahmudovun göstəriş verdiyini deyirlərsə, bunu sabiq şeflərinin xeyir-duası olmadan dillərinə belə gətirməzlər. Digər tərəfdən, istintaq generallardan belə bir ifadəni alırsa, ardından qarşı tərəfi - yəni Eldar Mahmudovu da gizli-qanunsuz dinləmə məsələsinə görə dindirməlidir. Eldar Mahmudovun vəzifəsini itirməsindən ötən 1 il 3 aylıq müddətdə onun istintaqa cəlb edilməsi haqda rəsmi məlumat yoxdur. Eldar Mahmudovun barəsində mətbuatda bu günə qədər "restoranda oldu", "şəhərdə bahalı maşında göründü" tipli xəbərlər də kifayət qədər yayılıb. Yayılan məlumatlardan belə nəticə hasil olunur ki, sabiq nazirdə özünün həbs edilməyəcəyi, istintaqa cəlb edilməyəcəyinə əminlik var. Bu əminliyin qaynağı Eldar Mahmudovun 11 illik nazirliyi dövründə topladığı kompromatların olması da istisna deyil. Onun həbsdəki generallarına adının hallandırılmasına icazə verməsinin səbəbi də bu ola bilər...

Qeyd edək ki, təqsirləndirilən şəxslər Sübahir Qurbanov, Fizuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Teymur Quliyev, Natavan Mirvətova və qeyrilərinə məxsus ümumilikdə 21 milyon 528 min manat dəyərində əmlak və pul vəsaitlərinin, o cümlədən 20 milyon 971 min manat dəyərində daşınmaz əmlak, 272 min manat dəyərində nəqliyyat vasitələri, 42 min manat dəyərində zərgərlik və digər qiymətli məmulatlar, 88 min manat, 88 min ABŞ dolları və 5 min avro nağd pul vəsaitləri üzərinə həbslər qoyulub.

Onlara Cinayət Məcəlləsinin 145.3 (qanunsuz azadlıqdan məhrum etmə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda), 178.3.1, 178.3.2 (dələduzluq mütəşəkkil dəstə tərəfindən külli miqdarda ziyan vurmaqla törədildikdə), 179.3.1, 179.3.2 (Mənimsəmə və ya israf etmə mütəşəkkil dəstə tərəfindən külli miqdarda törədildikdə), 181.3.1, 181.3.2 (Quldurluq mütəşəkkil dəstə tərəfindən külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə), 182.3.1, 182.3.2 (Hədə-qorxu ilə tələb etmə külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə ), 228.4 (Qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə), 302.1, 302.2 (gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma), 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4 (Rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən hədə-qorxu tətbiq olunmaqla külli miqdarda və təkrar törədildikdə), 313 (Vəzifə saxtakarlığı), 320.1, 320.2 (Rəsmi sənədləri saxtalaşdırma və bilə-bilə saxta sənədlərdən istifadə etmə), 341.2.1, 341.2.2 və 341.2.3-cü (Bir qrup şəxs tərəfindən silah tətbiq olunmaqla hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittihamlar irəli sürülüb. Onların barəsində cinayət işi ayrıca icraata verilib.

❑ **E.MƏMMƏDƏLİYEV**

# "Bir mətbuat konfransının tarixi" filmi təqdim edildi

### Film mərhum prezident Heydər Əliyevin 20 Yanvar hadisələri zamanı Moskvada təşkil etdiyi mətbuat konfransına həsr olunub




**Yanvarın 19-da Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə "Bir mətbuat konfransının tarixi" adlı sənədli filmin təqdimatı keçirilib. Filmin mövzusu sabiq prezident Heydər Əliyevin 1990-cı il yanvarın 21-də Moskvada təşkil etdiyi mətbuat konfransına həsr olunub. Həmin konfransda H.Əliyev 20 Yanvar faciəsinin təşkilatçılarına kəskin etirazını bildirərək, hadisəyə siyasi qiymət verib. Onun çıxışından sonra Moskvada yaşayan minlərlə azərbaycanlı etiraz mitinqləri keçirib. Bununla yanaşı, Rusiyadan SSRİ Ali Sovetinin deputatları, ictimai təşkilatların nümayəndələri Bakıya gəliblər və nəticədə 20 Yanvar faciəsi barədə əsl həqiqətlər geniş ictimaiyyətə çatdırılıb.**



Tədbiri giriş sözü ilə Mətbuat Şurasının (MŞ) sədri Əflatun Amaşov açaraq öncə tədbir iştirakçılarına 20 Yanvar faciəsinin qurbanlarını bir dəqiqəlik sükutla yad etməyi təklif etdi. Ardınca sözügedən tarixdə baş vermiş tarixi xronologiyanı yada saldı və həmin faciəli hadisəni təhlil etdi. Hadisələri həmin vaxt dünyaya çatdırmağın mümkünsüzlüyünü yada salan Ə.Amaşov ilk haqq səsinin Moskvadan-Heydər Əliyevdən gəldiyini dedi: "O, öz çıxışında Azərbaycanın yerli rəhbərliyinin səriştəsiz olması, hadisələrdən düzgün nəticə çıxarmamasını dedi. Rəhbərliyin düzgün seçilməməsi, düzgün qərarlar verilməməsi də onun səsləndirdiyi ittihamlar sırasında idi. O, bu hadisələrə düzgün hüquqi qiymətin verilməsini tələb etdi. Biz də düşünürük ki, SRRİ-nin hələ mövcud olduğu bir dövrdə mətbuat konfransı keçirməsi, o hadisələrə siyasi qiymət verilməsi ciddi hadisə idi. Məhz həmin konfransdan sonra dünyanın müxtəlif KİV-lərində materiallar dərc olunmağa başladı".




**Ə.Amaşov dedi ki, "Bir mətbuat konfransının tarixi" sənədli filmində bütün bu məqamlara nəzər salınıb, Heydər Əliyevin o zamankı fəaliyyəti ətraflı təhlil edilib, həmçinin dövrün şahidləri olan şəxslərin fikirləri yer alıb:** "Onu da bildirim ki, "Bir mətbuat konfransının tarixi" sənədli filminin məsləhətçisi prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov, müəllifi əməkdar jurnalist Mübariz Əsgərovdur. Ekran işi "Qulp studio" tərəfindən hazırlanıb".

45 dəqiqəlik sənədli filmin nümayişindən sonra onun ətrafında müzakirələr də getdi. Ekspert Cavanşir Mehdiyev bildirdi ki, bu konfrans Azərbaycan xalqının həyatında əhəmiyyətli rol oynayıb. O, filmin geniş ekranlardan nümayiş etdirilməsinə ehtiyac olduğunu vurğuladı.

**BDU-nun jurnalistika fakültəsinin müəllimi Cahangir Məmmədli dedi ki, bu filmdə H.Əliyevin təkcə haqsızlığa etirazı, hadisələrə qarşı yanğısı görünmür:** "Heydər Əliyev Rusiya kimi bir nəhəng dövlətin qarşısına çıxıb, onu ifşa etdi. Onun göstərdiyi cəsarəti heç də hamı çıxa bilməz".

Ə.Amaşov isə çıxışında dedi ki, 20 Yanvar təkcə faciəvi gün deyil, eyni zamanda qəhrəmanlıq salnaməsidir. Onun sözlərinə görə, H.Əliyev Moskvada bu hadisələrə qiymət verməklə Azərbaycan xalqının haqq səsini bütün dünyaya çatdırıb.

**Filmin müəllifi əməkdar jurnalist Mübariz Əsgərov bildirdi ki, etiraz mitinqçilərinə bu filmə göstərdiyi dəstəyə görə təşəkkür etdi:** "Bu günlərdən mənim yadımda qalan əsas odur ki, 10 minlərlə adam 20-30 kilometr yolu gedib, etiraz mitinqlərini keçirirdi. Matəm mitinqi deyildi. Matəm mitinqi olsa, məscidə gedərdik. O yol bizim üzümüzə açıq idi. O faciə bizi birləşdirmişdi. Mən çox istərdim ki, biz millət olaraq hər zaman belə dar məqamlarda bir yerdə olaq".

❑ **SEVİNC**

YENİ MÜSAVAT
N 13 (6627) 20 yanvar 2017

# Rusiya xarici ölkədə orden almaq istəyənlərə qadağa qoydu- Azərbaycan da buna qoşula bilərmi?

## Elxan Şahinoğlu: "Kreml öz siyasətçilərinə və məmurlarına arxayın deyil"

**Rusiya xarici ölkələrdən orden və medal alanlarla bağlı qərar qəbul edib. Belə ki, xarici ölkə mükafatlarına layiq görülən senatorlar əvvəlcə Federasiya Şurasından icazə almalıdırlar. Yalnız bundan sonra onlar layiq görüldükləri orden və medalları ala bilərlər.**

Şimal qonşumuzun bu qərarı Azərbaycanda da bu mövzunu diqqətə gətirib. Çünki Azərbaycan hökumətinin yüksək postlarında təmsil olunan bir çox məmurlar Rusiya daxil olmaqla, bir sıra dövlətlərin orden və medalları ilə təltif olunurlar. Ekspertlər hesab edirlər ki, Kremli bu qərarı qəbul etməyə vadar edən ən başlıca səbəb belə şəxslərin mükafat aldıqları ölkələrin təsir dairəsinə düşmək qorxusudur.

**Politoloq Elxan Şahinoğlu hesab edir ki, bu qərar mükafat verən ölkələrin aşağılanması anlamına gəlir:** "Rusiya Federasiya Şurasının senatorlara verilməsi planlaşdırılan xarici ölkənin orden və medalları şura rəhbərliyi və Xarici İşlər Nazirliyi ilə razılaşdırması nonsensdir. Bunun nonsens olduğunu rusiyalı senatorlardan biri də qeyd edib. Deməli, hansısa ölkənin rəhbərliyi senatora orden vermək məqsədilə ona zəng edir, o isə cavabında deyir ki, "bilirsiz, mən bu məsələni rəhbərliklə razılaşdırmalıyam", sonradan da cavab verir ki, "bilirsiniz, rəhbərlik sizin medala məni layiq görmədi". Bu isə faktiki həmin dövlətin aşağılanmasıdır. Görünür, Rusiya hakimiyyəti yeni dəyişiklik vasitəsilə senatorları və eləcə də deputatları nəzarət altında saxlamaq istəyir, hər verilən xarici ölkə medalını və ordeni siyasi rüşvət kimi dəyərləndirir. Başqa sözlə, hansısa xarici ölkədən orden və medal alan şəxs sonra həmin ölkə



üçün lobbiçilik etməlidir. Yəni Kreml öz siyasətçilərinə və məmurlarına arxayın deyil. Rusiya öz daxilində ciddi nəzarət mexanizmi tətbiq edərkən kənarda fərqli siyasət həyata keçirir. Rusiyanın xarici ölkə vətəndaşlarına payladığı orden və medallar yüksək səviyyədə razılaşdırılır. Kreml kimə gəldi orden və medal vermir. Yəni tutaq ki, Rusiya prezidenti Vladimir Putinin razılığını almadan hansısa xarici ölkə vətəndaşına orden və medalların verilməsi mümkün deyil. Xarici ölkə vətəndaşarına verilən orden və medallar da xüsusi nəzarət tələb edir. Məsələn, aydındır ki, Kreml heç zaman Rusiyanın maraqları ilə hesablaşmayan şəxsə orden və medal verməz".

**Politoloq Rusiyanın özünün yalnız inandığı şəxslərə mükafatlar verdiyini də qeyd etdi:** "Rusiya o şəxslərə orden və medal verir ki, onlara tam inansın. Məsələn, Rusiya prezidenti Vladimir Putin amerikalı həmkarı Donald Trampın dövlət katibi təyin etdiyi şəxsə də vaxtilə medal verib. O, həmin vaxt siyasətçi deyildi, böyük bir neft şirkətinin rəhbəri idi. İndi Putin ümidlidir ki, Amerikanın yeni dövlət katibi aldığı medala uyğun siyasət həyata keçirəcək, ən azı Rusiyanın regional maraqlarını nəzərə alacaq. Əlbəttə, bunun məhz belə olacağını söyləmək çətindir. Amerika Rusiyanın rəqibidir və bu ölkənin dövlət katibi Rusiyaya birmənalı dost ola bilməz. Ancaq evində saxladığı və Putinin əlindən aldığı medal hər zaman onu narahat edəcək, "adam duz-çörəyi yerə vurmaz" prinsipini əlində rəhbər tutaraq Barak Obamanın dövründə olduğu kimi Rusiyanı düşmən elan etməyəcək, harda mümkündür əməkdaşlığa çalışacaq. Amerika Birləşmiş Ştatlarının hansısa xarici ölkə liderinə orden və medal verdiyini eşitməmişəm. Amerikada belə bir ənənə yoxdur. Fransa və bəzi Avropa ölkələri nadir hallarda xarici ölkə vətəndaşlarına orden və medal verirlər. Çünki Qərb ölkələrinin bu yolla xarici ölkə vətəndaşlarını ələ almağa ehtiyac yoxdur".

❑ **Cavanşir ABBASLI**



## Daşkəsəndə 20 Yanvar hadisələri ilə bağlı anım tədbiri keçirilib

**20 yanvar 1990-cı olayları ilə bağlı Daşkəsən rayonunda tədbir keçirilib. Rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyevin sərəncamına əsasən hadisələrin ildönümünün geniş şəkildə qeyd olunmasını nəzərdə tutan tədbirlər planı hazırlanıb. Musavat.com-a bu barədə rayon İH-dən məlumat daxil olub.**



Məlumatda deyilir ki, rayonun təhsil, səhiyyə, mədəniyyət müəssisələrində, idarə və təşkilatlarında, inzibati ərazi dairələri üzrə nümayəndəliklərində dəyirmi masalar, müzakirələr və digər geniş anım tədbirləri keçirilib, həmçinin mədəni-maarif müəssisələrində 20 Yanvar faciəsinə həsr olunmuş fotostend, kitab sərgiləri hazırlanıb.

Qeyd edilən tədbirlərin tərkib hissəsi olaraq 19 yanvar 2017-ci il tarixdə 20 Yanvar faciəsinin 27-ci ildönümü münasibətilə rayon ictimaiyyətinin 3500-dən çox nümayəndəsinin iştirakı ilə Daşkəsən rayon Şəhidlər Xiyabanında ümumrayon anım mərasimi keçirilib. Rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyevin adından Şəhidlər Xiyabanındakı əbədi məşəlin önünə əklil qoyulub.

Daha sonra Ə.Abıyev şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və iştirakçıları, rayon ağsaqqalları və veteranları ilə görüşüb, onların ehtiyac və qayğıları ilə maraqlanıb.

Anım tədbirində iştirak edən rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri şəhid məzarlarını ziyarət ediblər.

Ümumrayon tədbiri sonra rayon Mədəniyyət Mərkəzində davam etdirilib. Mərkəzin foyesində məktəblilərin 20 Yanvar faciəsinə həsr olunmuş rəsm sərgisi təşkil edilib. Toplantı iştirakçıları tərəfindən şərgiyə baxış keçirilib.

Sonra tədbir iştirakçıları zalda şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Daşkəsən RİH-in başçısı Əhəd Abıyev tədbirdə nitq söyləyib.

# Müxalifət liderləri bahalığa görə...xalqı suçladı

**Son illərdə ölkədə cərəyan edən iqtisadi böhran və qiymət artımı ilə bağlı diqqətçəkən məqamlardan biri də müxalifət liderlərinin mövqeləridir. Müxalif siyasətçilər mövcud vəziyyətdə daha çox xalqı günahkar görürlər. Onların mətbuat və sosial şəbəkələrdəki fikirləri bunu deməyə əsas verir.**

Son olaraq AXCP sədri Əli Kərimli SOCAR-ın qiymətləri qaldıracağı ilə bağlı verdiyi anonsa münasibət bildirərkən deyib ki, "dözümlü xalq qiymət artımı anonsuna etiraz etməsə, qiymətlər qalxacaq". Əslində dözümlü xalq ifadəsi işlətməklə, Ə.Kərimli xalqın hazırkı susqunluğuna eyham vurub.

**ADP sədri Sərdar Cəlaloğlu** isə hesab edir ki, müxalifətin vəzifəsi xalq tərəfindən doğru qəbul edilməyib: "Siyasi partiyalar xalqın hüquqlarını müdafiə etmək, onu həyata keçirmək üçün dövlət qeydiyyatından keçmiş təşkilatlardır. "Siyasi partiyalar haqqında" Qanun var, siyasi partiyaların fəaliyyəti ilə bağlı beynəlxalq hüquq təcrübəsi mövcuddur. Beynəlxalq hüquq normalarına baxsanız görərsiniz ki, vətəndaşların sosial problemləri ilə məşğul olmaq siyasi qurumların səlahiyyətinə aid deyil. O yerdə ki siyasi hakimiyyət məsələsi yoxdur, orada siyasi partiyaların fəaliyyəti məhdudlaşdırılır. Uzun illərdir müxalifət liderləri yanlış olaraq, ölkədəki sosial problemləri öz üzərinə götürərək, siyasi partiyaların fəaliyyətinə zidd olaraq, bu istiqamətdə mübarizə aparırlar. Nəticədə cəmiyyətdə belə fikir formalaşıb ki, qiymətlərin artımı, yoxsulluq və digər bu kimi problemləri həll etmək həm də müxalifətin işidir. Siyasi partiyalar belə problemlərdən istifadə edib sadəcə hakimiyyət uğrunda mübarizə



**Sərdar Cəlaloğlu:** "Cəmiyyətdə fikir formalaşıb ki, qiymətlərin artımı, yoxsulluq və digər problemləri həll etmək müxalifətin işidir"

apara bilərlər. Əli Kərimli bu tərzdə fikir səsləndiribsə, buna çox sevinirəm. Ən azından mənimlə fikirlərini müxalifət daxilində bölüşən bir şəxs də var".

**Partiya sədri qiymət artımının müxalifətə aid olmadığı düşüncəsindədir:** "Qiymətlərin artması siyasi partiyaların səlahiyyətinə aid deyil. Partiyalar belə vəziyyətlərdə hakimiyyəti tənqid edə, xalqın gözünü aça bilər. Amma digər mübarizə növlərindən istifadə edə bilməz. Burada siyasi partiyalar iqtidarla xalq arasında rol oynamır ki... Əks halda, niyə də bu cür problemlərin həlli istiqamətində müxalifət çalışmalıdır, əksinə, belə problemlər olanda, hakimiyyət təklənəndə müxalifətin iqtidara yolu daha da açılır. Bu baxımdan, Azərbaycanda istər jurnalistlər, istərsə də başqa təbəqələr olsun, müxalifətin işini düzgün anlamırlar. Parlament seçkilərində təbliğat kampaniyasında vətəndaş deyir ki, kanalizasiyamı düzəltdir, yaxud biri də deyir ki, həyətimin qarşısında zibillik var, onu təmizlətdir, səs verim. Bu onu göstərir ki, siyasi maarifləmə çox aşağıdır. Problemi yaradan hökumətə xalq etiraz etməlidir. Xalq bilməlidir ki, müxalifət sosial-iqtisadi problemlərin həllində beynəlxalq hüquq normaları, qanunla iştirak etmir. Siyasi partiyalara, adından göründüyü kimi, tələb gərək siyasi olsun. Sən yaxşı yaşamaq istəyirsən, iş yeri tələb edirsən, bunlar siyasi deyil ki... Əgər hakimiyyətlə bağlı iradın varsa, o zaman mən sənin önünə çıxacam. Bəzən müxalifət liderləri yanlış vəzifələri öz üzərlərinə götürürlər. Bunları həll etmədikdə isə müxalifət gözdən düşür. Qiymət artımı ilə bağlı aksiya keçirmişik, nəticə qazana bilməmişik. Xalq deyib ki, əşi, bunların əlindən bir iş gəlmir. Amma nəzərə alan yoxdur ki, bu iş mənlik deyil. Sadəcə, başqasının işini üzərimə götürmüşəm. Azərbaycan müxalifətinin zəifləməsinə səbəb özünə aid olmayan işləri üzərinə götürməsidir. Taksiçilərlə bağlı AXCP vaxtilə aksiya keçirdi, evləri sökülənlərə müxalifət dəstək verdi, amma nəticə olmadı və müxalifət nüfuzdan düşdü. Müxalifət əgər iqtidarın yanlışlıqlarını düzəltməyə çalışacaqsa, o zaman xalq heç vaxt hakimiyyətin dəyişməsini istəməz. Nəticədə müxalifət özünü siyasi proseslərdən kənarlaşdırmış olur. Sizin dediyiniz problemlərin həllinin müxalifətə heç bir dəxli yoxdur. Çünki xalq əmək haqqının qaldırılmasını istəyir, iqtidarın getməsini yox. Əgər xalq nə vaxtsa problemlərin həlli üçün yeni hökumətin yaranmasını istəyəcəksə, o zaman müxalifət meydanlara çıxacaq. İndiki halda bizimlə xalqın maraqları üst-üstə düşmür. Yanlış düşünən xalqın önünə keçək? Bu xalq iqtidarın qalmasını istəyir. Belə halda müxalifətin proseslərə qoşulması nə xalqın, nə də dövlətin maraqlarına uyğun olmaz".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 13 (6627) 20 yanvar 2017

# 20 Yanvarın 27-ci ili - qəhrəmanlıq salnaməsi günü...




**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu Azərbaycan xalqına qarşı terror aktı törətdi; Bakı vaxtı ilə saat 12.00-da ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, gəmilər, avtomobillər və qatarlar səs siqnalları verəcək**



**Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş, 1990-cı ilin 20 yanvarında ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş qırğına gətirib çıxardı.**

1990-cı il, yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktı törədildi. SSRİ Müdafiə Nazirliyinin, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Sovet qoşunlarının təcavüzü nəticəsində rəsmi rəqəmlərə görə, Bakıda 137 mülki vətəndaş öldürülmüş, 744 nəfər yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi.

Bu gün faciə ilə yanaşı qəhrəmanlıq salnaməsi sayılan 20 Yanvar hadisələrinin 27-ci ili tamam olur.

Qanlı 20 Yanvar hər il Azərbaycanda ümumxalq hüzn günü olaraq qeyd olunur. Hər il olduğu kimi, bu gün də gün ərzində on minlərlə insan, o cümlədən ölkə prezidenti, dövlət və hökumət rəsmiləri, deputatlar, müxalifət partiyaları, diplomatik korpusun nümayəndələri Şəhidlər Xiyabanını ziyarət edəcəklər.

Bu gün Bakı Polis Qarnizonu gücləndirilmiş rejimdə işləyəcək. Daxili İşlər Nazirliyində hazırlanmış tədbirlər planına əsasən, 20 Yanvar faciəsinin 27-ci ildönümü ilə əlaqədar Şəhidlər Xiyabanına gələn ziyarətçilərin təhlükəsizliyini təmin etmək məqsədilə yanvarın 20-si səhər saat 8.00-dan mərasim başa çatanadək Mikayıl Müşfiq küçəsi və Hüseyn Cavid prospektinin kəsişməsindən, Mikayıl Müşfiq dairəsi ilə Mətbuat prospektinin kəsişməsindən, Mehdi Hüseyn küçəsi Teleteatr binasının qarşısından, İzzət Nəbiyev və Abbasqulu Abbaszadə küçələrinin kəsişməsindən, yeni Milli Məclisin inzibati binasının arxa hissəsindən Parlament prospekti - Şəhidlər Xiyabanı istiqamətinə bütün nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılacaq.



Dünya ictimaiyyətinin diqqətini Qanlı Yanvar faciəsinə yönəltmək üçün Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, Azərbaycan icmaları tərəfindən də müvafiq tədbirlər həyata keçirilir.

Yanvarın 20-də Bakı vaxtılə saat 12.00-da ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, gəmilər, avtomobillər və qatarlar səs siqnalları verəcək. 20 yanvar günü ölkə ərazisində matəm əlaməti olaraq Azərbaycanın dövlət bayraqları endiriləcək.

**20 Yanvar hadisələri zamanı Azərbaycan SSRİ Nazirlər Sovetinin sədri olmuş keçmiş prezident Ayaz Mütəllibov modern.az saytına müsahibəsində qanlı hadisələr barədə açıqlamalar verib. A.Mütəllibov 20 Yanvar hadisələrinin qarşısının alınmasının mümkünlüyünü bildirib və alınmamasında o dövrkü müxalifəti günahlandırıb:** "Mən o zaman Nazirlər Kabinetinin sədri vəzifəsində idim. Mənim tutduğum vəzifə isə siyasi vəzifə deyildi. Mən ölkənin sırf iqtisadi problemləri ilə məşğul olurdum. 20 yanvar olmaya da bilərdi, əgər radikal müxalifət Bakı qarnizonunun qarşısındakıları dağıtsaydı. Ancaq əks proses baş verirdi. Silahsız xalqı kazarmaların qarşısına göndərdilər. Mərkəzi Komitənin qarşısında da belə idi. Əfsus ki, nahaq yerə qan axdı.

Əbdürrəhman Vəzirov məgər bilirdi ki, 20 yanvarda ordu Bakıya girəcək? 16 yanvarda o, vəzifədən uzaqlaşdırılmış, Moskvaya getmişdi. Mərkəzi Komitə, Nazirlər Kabineti, Bakı Komitəsinin binaları müxalifət tərəfindən zəbt olunmuşdu. Bunu Moskva Konstitusiya çevrilişi kimi qəbul edirdi. Beləliklə, müxalifət respublikanı zərbə altında qoymuşdu. Ölkəni Moskvadan gələn Primakovun rəhbərliyi ilə yüksək vəzifəli şəxslər idarə edirdilər. Azərbaycanın bütün rəhbərləri vəzifələrindən uzaqlaşdırılmışdı. Ordunun Bakıya girəcəyi xəbərini AXC liderlərinə həmin bu qrup demişdi. Hətta Mərkəzi Komitənin qarşısındakı mitinq zamanı camaatın qarşısında çıxış edən Primakov etiraf etmişdi ki, qoşunlar Bakıya girəcək, dağılın! Bundan əlavə, Primakov və Moskvadan gələnlər AXC liderləri ilə görüşlərində də bunu vurğulamışdılar. Onlar xalqı Mərkəzi Komitənin qarşısından uzaqlaşdırmaq istəyirdilər. Müxalifət buna rədd cavabı vermişdi. Maraqlısı budur ki, Azərbaycan rəhbərliyinin bu danışıqlardan xəbəri 20 Yanvardan sonra oldu. Əbürrəhman Vəzirov Qırmızı Ordunun Bakıya girəcəyini ehtimal edirdi, ancaq inanmırdı. 16 yanvardan sonra ölkədə hakimiyyət AXC-nin və Moskvadan gələn qrupun əlində idi. İkincilər birinciləri idarə edirdilər".

**Xalq hərəkatının liderlərindən olmuş Etibar Məmmədov isə A.Mütəllibovu məsuliyyəti öz üzərindən atmaqda suçlayıb:** "1990-cı ildən bu yana Ayaz Mütəllibov və o zaman onunla bərabər hakimiyyətdə olanlar məsuliyyətdən qaçmağa can atırlar. Bir şeyi başa düşmürlər ki, o zaman yüksək vəzifə tutan şəxslər xalqın həyatına, təhlükəsizliyinə görə məsuliyyət daşıyırdılar. Bunlar məsuliyyətlərini dərk etməyərək həmin hadisələrin baş verməsində birbaşa məsuliyyətli olan şəxslərdir. Ayaz Mütəllibovun həmin hadisələrin baş verməsində və rus qoşunlarının Bakıya dəvət edilməsində birbaşa məsuliyyəti var. Çirkab atmaqdansa, indiyə qədər bir suala cavab versin ki, nəyə görə o, Moskvaya teleqramla müraciət edib və Azərbaycana qoşun dəvət edənlərin siyahısında olub? İndiyə kimi bu suala cavab verməyib. Ona görə də o suala cavab verməyən, o zaman hökumətdə vəzifə tutan və vəzifə borcuna görə də xalqın təhlükəsizliyini təmin etməyə borclu olan bir adamın indi nə mənəvi, nə də siyasi hüququ var ki, başqalarını ittiham etsin. Qoşun göndərilməsi üçün Moskvaya Artur Rasi-Zadə də, Əbdürrəhman Vəzirov da, Ayaz Mütəllibov da teleqram vurub. Hətta Mərkəzi Komitənin də, Nazirlər Kabinetinin də adından teleqram vurublar. Bunların hamısı faktdır. İstintaq materiallarında var. Ayaz Mütəllibov heç olmasa, özündə bir cürət tapıb uzun illərdən sonra məsuliyyəti etiraf etsin".

**Etibar SEYİDAĞA**









# Virtual Azərbaycanda real sir-sifətlər

**Samir SARI**

**Real həyata baxmayın, bizim virtual aləmdə hamı ağıllıdır, hamı vaxtaşırı çox ağıllı şərhlər, məsləhətlər verir.**

Hamı burda dissidentdir, hər şeyə etiraz edər, heç kəslə razılaşmazlar, mütləq öz fikirləri var.

Ölkənin ən şən və hazırcavab adamları burdadır: hər sözə bir söz qoşarlar, bir mövzunun çürüyünü, absurdunu çıxarana qədər zarafat edərlər, lağlağı ərşə dirənər.

Burada hamı hər şeyi bilir, istənilən mövzu üzrə ekspertlik edirlər - beynəlxalq vəziyyətdən tutmuş ta ölkədaxili kriminogen duruma qədər. Təhlilləri çox dərindir, onlara görə, dünyada nə baş verirsə, hamısı Amerika və İsrailin oyunudur.

Burdakı vətənpərvərlərin üzünü görmə, bircə dəfə milli bayrağı çəpəki tut, gününü göstərsinlər. Hələ bunun himn oxunması var, hərbi salamın düzgün verilməsi var. Hamısına hərfbəhərf, santimetrinə qədər ciddi riayət edilməlidir.

Din-iman əhlinin bu aləmdə xüsusi mövqeyi var, keşikdədirlər, "kafir", "sionist", "şeytan" adlandırılmaq istəmirsənsə, ya yazdığına diqqət etməlisən, ya da o "inqilab keşikçiləri" ilə dostluğu kəsməlisən.

Hakimiyyətin hər addımını, hərəkətini, qərarını dəstəkləyənlər ordusu var burada, prinsipləri "hökumət nə edir, düz edir, ona qarşı çıxanlar erməni dəyirmanına su tökür"dür. Sabah bir yumurta 100 manata qalxsa da, onlar hökuməti dəstəkləyəcəklər.

"Hakimiyyət nə edir, səhv edir" deyənlər bu aləmdə daha çoxdur, içlərində elə fanatiklər var ki, sabah hökumət basıb Qarabağı alsa da, razılaşmayacaqlar, deyəcəklər, düz olmadı, rejim xalqa növbəti dəfə xəyanət etdi.

Ölkənin ən höcət, ən cığal, ən mübahisə sevən adamları məhz burdadır. Saatlarla yazışa, höcətləşə bilərlər. Onlar həmişə haqlıdır - qatığa ağ deyəndə də, qara deyəndə də. Hətta özlərindən əvvəl bu iki rəngi seçənlər varsa, onlar üçüncü, dördüncü variantın üzərində israr edəcəklər.

Dalaşqan adamların da çoxu burdadır, heç nədən dava salar, virtualda sözləri çəpləşən kimi, bir-birilə söyüşər, realda görüş təyin edərlər.

Yaxşı ki, onların yarıdan çoxu virtualda igid, realda qorxaqdırlar, görüş yerinə gəlməzlər, məlum olar ki, bəziləri Gürcüstanda, Ukraynada, Amerikadadır.

Bay, manyaklardan danışmadıq. Onlar burada faraş mal təzəyi üstündə qaynaşan milçəklər qədərdirlər. Ölkənin facebook üzvü olan qız-gəlinlərini bezar ediblər. Orta statistik göstəriciyə görə, bir qadının daxili poçtuna həftə ərzində 247 "tanış olaq, görüşək" mesajı gəlir. Əgər qadın ailə durumunu "boşanmış" olaraq qeyd edibsə, durumun riyazi düsturu 247*5=1235 şəklini alır.

Psixopatlar bu aləmin bəzəyidir. Onlar hər gün istifadəçiləri terrorizə edirlər.

Bəs çuğullar varmı? N qədər. Onların işi-gücü istifadəçilərin statuslarını, şərhlərini izləmək, skrinşot edib saxlamaq, əlaqədar orqanlara raport verməkdir. Sizcə, bu gənc fəallar nəyə görə vaxtaşırı saxlanılır, onlara xəbərdarlıq edilir? Çuğulların işidir, gecə-gündüz dövlətçiliyin keşiyindədirlər.

Yəni cəmiyyətdə nə simada, obrazda, sir-sifətdə adam varsa, hamısı burdadır. Hamısının buradakı mövcudluq motivini anlamaq olar. Hərənin bir dərdi, bir arzusu var.

Dələduzlar da az deyil. Vaxtaşırı kimisə aldadır, türkün sözü, dolandırır, dolanışıq pulunu əlindən alırlar. Məsələn, o gün bir qız yazıb ki, bir nəfər onu işə düzəltmək adıyla ondan 3 min manat alıb və qeyb olub. Kim o dələduzu tapsa, qız ona mükafat verəcəkmiş. Bir oğlan da yazıb ki, bacı, vallah, bu bəxt ki səndə var, biri çxacaq, "dələduzu tapmışam" deyəcək, mükafatı alıb aradan çıxacaq.

Hə, bir də virtual aləm vasitəsilə real adamlara üstüörtülü, laübalı, ünvanlı mesajlar göndərənlər var. Cürbəcür mesajlar. Romantik səpkilisi də var, siyasi səciyyəlisi də, məişət səviyyəlisi də. Mesajların ən unikalını bir tanınmış şair yazmışdı. Şair qeyd etmişdi ki, onun oğlunun dostlarından kimsə oğlanı elə içirdib ki, övlad evə başqasının ayaqqabısını geyib gəlib. Şair həmin adamı axtarırdı ki, ona iki kəlmə söz desin.

Uzun sözün kəsəsi, bizim virtual aləmimiz belədir. Bu real aləmdən daha maraqlı, daha şəffafdır. Bir dəlixana düşünün. Bir var, ona kənardan baxasan, bir də var hasarından içəri keçəsən. Bizim virtual aləmimiz o hasarın iç tərəfidir.

# Şəhid hərbçimizin nəşini düşməndən geri almağın yolu...

## "Gərək bir-iki erməni əsgərini öldürüb sonra düşmənin qarşısına şərt qoyaq"

**Ermənistan növbəti dəfə beynəlxalq öhdəlikləri və konvensiyaları pozaraq ötən ilin 29 dekabrında dövlət sərhədində düşmən təxribatı nəticəsində şəhid olmuş Azərbaycan hərbçisi Qurbanov Çingiz Salman oğlunun nəşini qaytarmaqdan imtina edir.**

Artıq beynəlxalq təşkilatlardan da gec də olsa, bununla bağlı reaksiyalar gəlir, İrəvana mesajlar verilir. NATO Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində sülh yolu ilə həllini dəstəkləməkdə davam edir. Bunu "Trend"ə müsahibəsində NATO-nun rəsmi nümayəndəsi deyib. Müsahibin sözlərinə görə, münaqişələrin dinc yolla həlli NATO-nun başlıca dəyəridir. O qeyd edib ki, bu həm də "Sülh naminə tərəfdaşlıq" proqramının iştirakçılarının əsas məqsədlərindən biridir. Nümayəndə deyib ki, NATO ATƏT-in azərbaycanlı hərbçinin meyitinin Ermənistan tərəfindən qaytarılması tələbi ilə bağlı bir neçə gün əvvəl verdiyi bəyanatını dəstəkləyir.



**Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Peter Maurer isə Azərbaycanın insan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanovanın 29 dekabr 2016-cı il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən qətlə yetirilmiş Azərbaycan Silahlı Qüvvələrinin əsgəri Çingiz Qurbanovun meyitinin qaytarılması ilə bağlı ona ünvanlanmış müraciətinə cavab verib. Bu barədə APA-ya Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı məlumat verib.** "Peter Maurer ombudsmanın məktubuna cavab verərək bildirib ki, onlar hadisənin inkişafını diqqətlə izləyir və ən yaxın zamanda bütün tərəflərin razılığı əsasında şəhid əsgərimizin cənazəsinin qaytarılması üçün çalışmağa davam edəcəklər", - deyə A. Səfixanlı söyləyib.

**"Ötən ilin 29 dekabr tarixində Ermənistan tərəfindən təmas xəttində həyata keçirilən təxribat nəticəsində əsgərimiz Çingiz Qurbanov şəhid olub və onun nəşi bu günə qədər Azərbaycana qaytarılmayıb". Gununsesi.info xəbər verir ki, bunu Milli Məclisin İnsan hüquqları komitəsinin yanvarın 19-da keçirilən iclasında deputat Hikmət Məmmədov (Babaoğlu) deyib. O bildirib ki, Ç. Qurbanovun hüquqlarının qorunması ilə bağlı bütün Azərbaycan xalqı səfərbər olub. Deputat qeyd edib ki, bu məsələ dövlət başçısı İlham Əliyevin birbaşa diqqətindədir:** "Amma düşünürəm ki, Milli Məclisin İnsan hüquqları komitəsi olaraq bu məsələ ilə bağlı bəyanat qəbul edə bilərik".

**Politoloq Elxan Şahinoğlu çıxış yolunu konkret olaraq belə görür:** "Əsgərimizin nəşini geri almaq üçün gərək bir-iki erməni əsgərini öldürüb sonra düşmənin qarşısına şərt qoyaq".

**"Əgər bu məsələ beynəlxalq normalar çərçivəsində həll olunmursa, bunu hərbi yolla həll etmək lazımdır". Ehtiyatda olan polkovnik Şair Ramaldanov "Yeni Müsavat"a belə dedi. Onun sözlərinə görə, işğalçının hansısa hərbçisini əsir götürmək və onu əsgərimizin meyiti ilə dəyişmək lazımdır:** "Əgər onlar beynəlxalq qanunlara əməl etmirlərsə, deməli, bizi bu variantı əl atmağa vadar edirlər. Biz neçə yüz km-lik təmas xəttində ermənilərlə üz-üzə durmuşuq, bu yola əl atmağa geniş imkanımız var. Artıq meyitin qaytarılması üçün ayrılan müddət keçib, beynəlxalq normalara əməl olunmayıb. Hətta əsirlə də bu cür davranmaq olmazdı, nəinki meyitlə. Meyit kimə məxsusdursa, o torpağa tapşırılmalıdır, burada ikinci söhbət ola bilməz. Lap bir ay, beş ay saxladılar, sonra? Onlar insaniyyətdən o qədər uzaqlaşıblar ki, belə iş tuturlar. Əgər əsgərimizin meyiti qısa müddətdə qaytarılmasa, biz elə şərait yaratmalıyıq ki, ermənilər özləri yalvarsın, desinlər gəlin meyitinizi aparın".

**Müdafiə Nazirliyinin mətbuat xidmətindən isə dedilər ki, hələlik şəhid əsgərimizin qaytarılması ilə bağlı hər hansı yenilik yoxdur.**

❑ **Cavid TURAN**

# Ağcabədidə ana və körpəsi doğuş zamanı öldü

**Ağcabədi rayonunda doğuş zamanı ana və körpə ölümü baş verib. APA-nın Qarabağ bürosunun xəbərinə görə, Ağcabədi rayon Rəncbərlər kənd sakini, 1985-ci il təvəllüdlü Qaraşova Təzəgül Əliş qızı yanvarın 19-na keçən gecə Ağcabədi Mərkəzi Rayon Xəstəxanasının Doğum Evinə daxil olub. Doğuş zamanı əvvəlcə ana, daha sonra dünyaya gətirdiyi körpə həyatını itirib. Ağcabədi Mərkəzi Rayon Xəstəxanasından (MRX) APA-nın Qarabağ bürosuna verilən məlumata görə, Qaraşova Təzəgül Əliş qızının ölümünə preeklampsiya və böyrək çatışmazlığı səbəb olub.**



Xəstəxanaya çatdırılan 32 yaşlı qadın qeysəriyyə əməliyyatı ilə 2, 100 qram çəkidə qız uşağı dünyaya gətirib. T. Qaraşova əməliyyatdan sonra vəfat edib. 9 aylıq hamiləlik dövrü tamamlanmadığı üçün doğulan körpənin Sabirabad Rayon Perinatal Mərkəzinə aparılmasına qərar verilib. Körpə mərkəzə aparılarkən yolda ölüb.

Ağcabədi MRX-dən onu da bildiriblər ki, bu, T.Qaraşovanın 3-cü hamiləliyi olub. Bundan əvvəl iki dəfə onun hamiləliyi vaxtından əvvəl başa çatdığı üçün körpələr ölüb.

Səhiyyə Nazirliyinin Hamiləlik, doğuş və zahılıq dövrlərində ölüm, mamalıq ağırlaşmaları hallarının təhlili üzrə Komissiya və Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi tərəfindən ölümün səbəbləri ilə bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 13 (6627) 20 yanvar 2017

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, həmçinin İnsan hüquqları komitələrinin yanvarın 19-da keçirilən iclaslarında gərgin anlar yaşanıb.**

# Milli Məclisdə deputatlar arasında kəskin müzakirələr

## Deputat Vahid Əhmədov Rəqabət Məcəlləsinin qəbul edilməməsinə görə parlamenti qınadı, PA-ya da tənqidlər səsləndi; Tahir Kərimli isə dövlət qurumlarına etiraz etdi


Vahid Əhmədov


Tahir Kərimli


Yevda Abramov

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin toplantısında çıxış edən **deputat Vahid Əhmədov** Azərbaycanın üzləşdiyi iqtisadi vəziyyətdən çıxması və normal biznes mühitinin yaradılması ilə bağlı təkliflərini səsləndirib. Belə ki, deputat bu məqsədlə komitənin yaz sessiyasına Rəqabət Məcəlləsinin salınmasını da təklif edib. V.Əhmədov Rəqabət Məcəlləsinin hələ də qəbul edilməməsinə etirazını bildirib. Mübahisə də bundan sonra başlayıb. Rəqabət Məcəlləsi ciddi və gərgin müzakirələrə səbəb olub. "Bu qanun Milli Məclisdə iki dəfə oxunuşdan keçib. Üçüncü oxunuşda geri qaytardılar. Prezident "Strateji Yol xəritəsini" imzalayıb. Buna görə bir sıra qanunlar qəbul olunmalıdır. "Hesablama Palatası haqqında" təzə qanun qəbul etməliyik. Hər il biz bu məsələni qaldıranda deyirlər ki, nazirlik üstündə işləyir. Amma qanun layihəsi yoxdur. Buna görə də bu gün Azərbaycanda monopoliya və inhisarçılıq baş alıb gedir. Bu qanun varsa, niyə qəbul etmirik?"-deyə, V.Əhmədov bildirib. Modern.az-ın xəbərinə görə, deputat deyib ki, Azərbaycanda yaranmış indiki vəziyyətdə Milli Məclisin günahı hamıdan çoxdur: "Çünki biz lazım olan qanunları qəbul etmirik. Kiminsə mənafeyini müdafiə etmək məcburiyyətində qalırıq. Üçüncü bir qanun layihəsi "Maliyyə nəzarəti haqqında" qanun layihəsidir. İndi biz bank sistemini ayırdıq, palata yaratdıq. Bank sistemi düzəldimi? Xeyr, bu, biabırçılıqdır. Necə var idisə, ondan da pis vəziyyətdə davam edir. Biz təşkilatı yaradanda mən dedim ki, lazım deyil. Bu, indiki halda Azərbaycana heç bir xeyir verən deyil. Amma indi Mərkəzi Bankla Maliyyə Bazarlarına Nəzarət Palatası arasında müəyyən mübahisəli məsələlər gedir. Bank sistemini biz bu gün sağlamlaşdıra bilmirik. Ona görə bu qanunun qəbul etmək sərf eləmir. Çünki bu gün Azərbaycanda müəyyən qurumlarda maliyyə maxinasiyaları gedir. Təklif edirəm ki, üç qanun layihəsi gündəliyə salınsın".

**Komitə sədri Ziyad Səmədzadə isə cavabında deyib ki, Rəqabət Məcəlləsi ilə bağlı sənəd Milli Məclisə daxil olmayıb:** "Daxil olsun ki, biz onu qəbul edək. Prezident Administrasiyasında, müvafiq nazirliklərdə üzərində işləyirlər. Ona görə də indiki yaranmış vəziyyətə görə Milli Məclisi günahlandırmaq doğru deyil".

**Deputat İlham Əliyev də məsələyə münasibət bildirib:** "Bu qanun gəlmirsə, onda gedib Prezident Administrasiyasından yapışmaq lazımdır".

**Milli Məclisin İnsan hüquqları komitəsinin toplantısında da əsəblər gərilib. Belə ki, deputat Tahir Kərimli söz alaraq bəzi qurumları tənqid edib. "Bəzi nazirliklər və digər dövlət qurumları deputatların sorğularına hörmətsiz yanaşırlar"-deyə, o bildirib. T.Kərimli daha sonra əlavə edib:** "Hətta elələri var, köməkçiləri belə bizə cavab vermirlər. Belə olan təqdirdə biz seçicilərin dərdini kimdən soruşaq?"

**Tahir Kərimlinin komitənin əvvəlki illərdəki fəaliyyətinə tənqidi fikir söyləməsinə isə Yevda Abramov sərt reaksiya verib:** "Mən 10 ildən çoxdur bu komitənin sədr müaviniyəm. Həmkarım Tahir bəy bizi zamanında yaxşı fəaliyyət göstərməməkdə və geridə qalmaqda ittiham edib. Mən deyirəm ki, məgər Milli Məclisin komitəsi fabrik və ya zavoddur ki, istehsalda geri qalsın?! Biz indiki kimi əvvəl də işləyirdik". Y.Abramovun bu fikri T. Kərimli tərəfindən əks reaksiya ilə qarşılanıb.

**Məsələyə müdaxilə edən komitə sədri Bahar Muradova bildirib ki, Milli Məclisdə kiminsə şəxsi münasibətlərini müzakirə etməyə ehtiyac yoxdur:** "Hər dövrün öz tələbi var və komitə də dövrünə görə öz fəaliyyətini qurub. Ona görə də bu məsələlərə ehtiyac yoxdur".

**Azərbaycanda sosial şəbəkələri və blogger fəaliyyətini tənzimləyən qanun layihəsinin hazırlanması təklif olunur. Belə bir təşəbbüslə Milli Məclisin İnsan hüquqları komitəsinin iclasında Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov çıxış edib. (modern.az). O deyib ki, bu gün dünyada bloggerlərin fəaliyyəti başqa cür dəyərləndirilsə də, Azərbaycanda buna yanaşmada fərqli baxış var və onun fəaliyyətinin sərhədləri müəyyən edilməyib:** "Ona görə də bu sahənin fəaliyyətini tənzimləyən yeni qanuna ehtiyac var".

**Deputat Hikmət Məmmədov (Babaoğlu) da təklifi dəstəkləyib. Milli Məclisin Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin sektor müdiri Sarvan Sadıqov təşəbbüsü dəstələyərək bildirib ki, bu sahədə xaos hökm sürür:** "Kim nə istəyir onu yazır. Ona görə də bu sahənin qanunla tənzimlənməsinə ciddi ehtiyac var".

❑ **Hazırladı: E.PAŞASOY**

# Rus ekspertin məmurlar haqda şok iddiasına sərt təpki

**Rusiya Siyasi Azadlıq Mərkəzinin analitiki, hərbi ekspert Boris Djerelievskiyin Azərbaycanla bağlı səsləndirdiyi şok iddialar ölkəmizdə ciddi etirazla qarşılanıb. Hərbi ekspert ötən ilin aprelində Azərbaycan və Ermənistan arasındakı savaşda ABŞ və Avropanın xüsusi rolunun olduğunu bildirib.**


**Mehman Əliyev:**
"Onun agentlərlə bağlı dedikləri mənasız fikirlərdir"


**Qabil Hüseynli:**
"Onun fantaziyası ölkəmizə qarşı yeni təxribatların tərkib hissələrindən biridir"

Bu barədə moderator.az saytı məlumat yayıb. Məlumatda qeyd olunur ki, rus ekspert deyib ki, Rusiya-İran-Türkiyə yaxınlaşmasının qarşısını almaq, Rusiya və Türkiyənin Qarabağ münaqişəsini həlletmə cəhdlərinə mane olmaq üçün Qərb dövlətləri Azərbaycan hakimiyyəti daxilindəki agentlərdən istifadə edib. Onun ən çox diqqətçəkən iddiaları bunlardır: "Yüksək rütbəli Azərbaycan məmurlarının, eləcə də güc strukturları əməkdaşlarının nəzərəçarpan hissəsi xarici qurumların nəzarətindədir. Onu demək kifayətdir ki, son 15 ildə 1000-ə yaxın Azərbaycan vətəndaşı "gənc liderlərlə mübadilə"(FLEX) proqramı çərçivəsində ABŞ-da hazırlıq keçib. Həmin hazırlığın Amerikanın təsir agentlərinə (və yaxud sadəcə, ABŞ agentlərinə) çevrilmiş, deməli olar ki, bütün iştirakçıları hakim strukturlarda kifayət qədər yüksək postlar tutublar".

**Djerelievskin bu açıqlaması ilə eyni vaxtda Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov Rusiyanın XİN rəhbəri Sergey Lavrovun Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dediklərinə mövqeyini bildirib. T.Zülfüqarovun Azərbaycanın hansı yöndə siyasət yürütməsi ilə bağlı fikirləri daha çox diqqət çəkir:** "Azərbaycanın hər bir siyasətçisi, hər bir məmuru rusiyapərəst, amerikapərəst, iranpərəst, türkpərəst mövqedən yox, azərbaycanpərəst mövqedən çıxış etməlidir! Və bu, əsas meyar olmalıdır".

Sabiq XİN rəhbərinin bu fikirləri və rusiyalı analitikin dedikləri Azərbaycanın hazırda yuxarıda qeyd olunan mövqelərdən hansı tərəfdən çıxış etdiyini gündəmə gətirib.

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev rusiyalı hərbi ekspertin aprel savaşı ilə bağlı dediklərini qəbul etmədiyini söylədi:** "Məsələ bundadır ki, iki ölkənin baş qərargah rəisləri Moskvada savaşı dayandırmaqla bağlı razılığa gəldilər, Brüssel və Vaşinqtonda deyil. Bu mənada onun iddiaları çox məntiqsizdir. Azərbaycanın rus, fars, yaxud qərbpərəst mövqedən çıxışına gəldikdə isə Tofiq Zülfüqarov düz deyir, azərbaycanpərəst mövqedən çıxış olunmalıdır. Çünki ölkəmizin maraqları hər şeydən üstündür. İlk sırada bu amil dayanır. Azərbaycan hakimiyyəti Heydər Əliyev dönəmindən başlayaraq, indi də İlham Əliyev dönəmində tarazlı siyasət yürüdür. Bu siyasət bu gün də davam edir. Heç bir xarici gücün tam şəkildə ölkəmizdə bərqərar olması hələ baş verməyib. Amerikanın təsirləri əlbəttə güclüdür, Rusiya və İranın təsirləri qalır, Türkiyənin maraqları var. Bütövlükdə hökumət bunların qarşısında balanslı siyasət aparmağa çalışır. 1994-cü ildən qoyulan strateji xətdir. Bəzi vaxtlarda uğursuzluqlar ola bilər, bu başqa mövzunun söhbətidir. Onun agentlərlə bağlı dedikləri də mənasız fikirlərdir. Əldə sənəd olmalıdır ki, kiminsə agent olması bilinsin. Ona qalsa, Rusiyada çoxlu azərbaycanlı indiyədək təhsil alıb, indi onlar rus agentləridir? Hər bir şəxs istənilən ölkədə oxuya bilər. Bu zaman hər sahədə o ölkə ilə bağlılığı yaranır. Rəğbəti ola bilər, dostlarının olması mümkündür. Amma o şəxsləri birbaşa agent elan etmək düzgün deyil. Bu şəxs təsir agentlərini nəzərdə tuta bilər. Amma birbaşa agent demək cəfəngiyyatdır".

**Politoloq Qabil Hüseynli də hesab edir ki, ilk növbədə azərbaycanpərəst siyasətə önəm verilməlidir:** "Bu siyasət yürüdülərkən, söhbət burada dövlətlərlə münasibətləri korlamamaqdan gedir. Çünki konkret yol seçəndə digəri bizi vura bilər. Azərbaycan Qoşulmayanlar İttifaqının üzvü kimi hamı ilə münasibət qurmağa can atır. İndiyə qədər bu siyasət öz effektini verib. Düşünürəm ki, Azərbaycan hər an seçimini dəqiqləşdirə bilər. Rusiyalı nazir Lavrovun son açıqlaması çox mətləblərdən xəbər verdi. Hamımız Rusiyanın hansı əməllərə sahib olduğunu bilirik. 2-5 aprel hadisələrinə gəlincə, Azərbaycan buna çoxdan hazırlaşırdı. Bundan öncə Azərbaycan "Horadiz" əməliyyatı keçirib, ermənilərə sarsıdıcı zərbə vurmuşdu. Bu baxımdan, bu savaş bizə lazım idi. Burada hər hansı bir ölkənin, xüsusən Qərbin izinə rast gəlmək mümkün deyil. Bu, Azərbaycanın zehninin məhsulu idi. Qərb istəsəydi, bu məsələni çoxdan hazırlayardı. Bu savaşla sübut olundu ki, ermənilər ruslar olmadan döyüşə bilmirlər. Bax, bu mesajı da vermək Azərbaycan tərəfi üçün vacib idi. Hesab edirəm ki, bu savaşda Qərb izi axtaranlar Azərbaycanı sevməyənlərdir. Bu məsələlər məxfi surətdə hazırlanmışdı və öz nəticəsini də verdi. Rus analitikin agentlərlə bağlı dedikləri, sadəcə, gülməlidir. İstər sovet, istərsə də müstəqillik illərimizdə minlərlə vətəndaşımız Rusiyada təhsil alıb. O zaman belə çıxır ki, onlar da agentlərdir və Rusiya agent yetişdirir? Amerikaya oxumaq üçün göndərilən şəxslərin sayı 500-ə çatmır. Onlar ailə tərbiyəsi alıblar, orta məktəbi burada oxuyublar və vətənpərvər şəxslərdir. Bu şəxslər demokratiyaya meylli, insan haqları məsələlərində həssas ola bilərlər. Bəzi məsələlərdə bizdən və digərlərindən onların fərqli düşünmələri normaldır. Amma vətən, namus və qeyrət məsələlərində onların fərqli düşünəcəklərini fikirləşməyin özü qəbahətdir. Bu baxımdan, həmin şəxsin dedikləri fantaziyanın məhsuludur. Bu fantaziya ölkəmizə qarşı yönəlmiş yeni təxribatların tərkib hissələrindən biridir".

❑ **Cavanşir ABBASLI**



# Leşyeyənlərin mübarizəsi

Zamin HACI
zaminhaci@mail.ru

**Abutalıbov əslində düz deyir, jurnalistlərimiz boş-boş işlərlə məşğul olmaqdansa bel götürüb arx qazmalı, paytaxtı basan suların qabağını açmalıdır. Jurnalistikanın beş qəpiklik hörməti qalmayan, söz azadlığı çirkab sularına qarışdırılıb kanalizasiyaya axıdılan, qəzetləri məmurların tualet kağızı, televiziyaları isə telekanalizasiya kimi istifadə edilən yerdə ayrı nə deməli idi? Hələ hörmətlə yanaşıbdır. Adam bəlkə qırx ildir paytaxtın icra hakimidir. Bakı bütün Avropada yeganə şəhərdir ki, onun meri yoxdur, bələdiyyə seçkisi keçirilmir. Buna kim etiraz elədi? Jurnalistlər haçan bu faktı kampaniya şəklində qaldırıb mer seçkisi tələb etdilər? Heç xalqın da xəbəri yoxdur.**

Yaxşısı budur Mətbuat Şurası da arxqazma kampaniyasına töhfəsini versin. Örnək üçün, pis qazan jurnalistləri "reket arx qazanlar" adlandırmaq, "qara lopatkalılar" dəftərinə salmaq olar. Yoxsa elə bil bekarçılıq yaranıb, hörmətli Amaşov sosial şəbəkələrin, internetin tənzimlənməsindən danışır. Hələ arxın içində gör nə qədər iş var!

Sözgəlişi, dünən rayonlardan birində ana doğum zamanı öldü, körpəsi də öldü. Əgər vaxtında jurnalistlər o qadının yerinə doğsaydılar, belə faciə yaranardımı? O cümlədən Hacıbala müəllim də asudə vaxtlarında doğa bilər. Biz gərək məsuliyyətli vətəndaş olaraq hər işin qulpundan yapışaq, dövlətçiliyimizə töhfə verək.

İşıq pulu qalxandan bəri şadlıq sarayları, toyxanalar salonu qızdırmağa qənaət edir, nəticədə camaat içəridə donur, xəstəlik tapır. Ən pisi odur ki, bəy və gəlini don vura bilər. O zaman jurnalistlərin və icra hakimiyyətinin vəzifələri daha da artır. Əks halda, millətimizin nəsil artımı necə olacaq? Axı biz 1 milyard yarım müsəlman camaatını cüzi də olsa təmsil edirik, dünya xristianları isə bizim artmağımızdan qorxurlar. 21-ci əsr türk-müsəlman əsri olacaqdır! Almaniyada artıq kişi tapılmır. Suriyanı da ona görə qatıb-qarışdırdılar ki, cavan kişilər mühacirət eləsin, Avropaya yeni qan gəlsin. Bunlar zarafat deyil, geopolitik məsələdir. Hələ İranda bir şam var, hamamı onunla qızdırırlar. MAQATE İranı elə o şama görə blokadaya alıbdır, deyirlər, tez edin, o şamın sirrini bizə açın. O şamdan bizə də lazımdır - qızdırma salmaq üçün.

Temadan o qədər uzaq getdik, heç düzü indi bilmirəm nədən yazırdım. İki gün qabaq poçtuma Azərbaycan Tibb Universitetindən gözəl bir məktub daxil oldu. Orda keçəl bir həkim saçları sıx, sağlam saxlamağın yolları haqda uca millətimizə dəyərli məsləhətlərini vermişdi. Sitat: "Saç tökülmələrinin qarşısını almaq üçün diqqətli olmaq, stressdən qorunmaq, düzgün qidalanmaq lazımdır".

Görün necə gözəl həkimlərimiz vardır. O qrip həkimi yadınıza gəlirmi? O qardaş da deyirdi yaxşı yeyib-için, xəstələnməyin. Guya biz özümüz bunu bilmirik. 14 il həkimlik oxuyublar, öyrəndikləri budur: "Yeməyinə fikir ver". Hamısını yığıb göndərəsən yağış yağanda arx açmağa... Yemək var ki, fikir də verək? Hərçənd bu həkimlərin özləri 200-300 manat maaşla yeməklərinə necə fikir verə bilirlər, stressdən nə cür qorunurlar - bunun özü də bəşər tarixinin anlaşılmaz sirlərindən biridir.

Böhranın həyatımızı necə vurduğunu AMEA Zoologiya İnstitutunun lap təzə bir araşdırması da ortaya çıxardıb. Yox, kasıbçılıqdan camaat bir-birinin ətini yeməyə başlamayıb, bu zooloji xasiyyətimiz həmişə var, olub, olacaq. İstər varlı vaxtımız olsun, istər kasıb - yırtıcılıq adətimizdir. Bunu heç araşdırmaq lazım deyil. Bəs zooloqlarımız nəyi aşkar ediblər? Türyançay qoruğunda leşyeyən quşların sayında (kərkəs, qartal və sairə) azalma müşahidə edilib. Səbəb isə qida azlığıdır. Sən demə, o ətrafda ev heyvanlarının leşlərində 35,5 faiz azalma vardır. Ya kənd təsərrüfatı rəhmətə gedibdir, ya da camaat ölən ev heyvanlarının leşlərini daha çölə atmır, kolbasaya-zada vurur. Bəlkə də dükandan sosiska alanda hansısa kərkəsin boğazına şərik çıxırıq.

Hacıbala müəllim baldırından kəsib kərkəslərə versin. Nə biləsən, bəlkə bu minvalla Məlikməmmədə dönüb bizi işıqlı dünyaya çıxardacaq?

# "Həyatda heç zaman siyasi ambisiyalarım olmayıb"

## Millət vəkili Qənirə Paşayeva: "Bütün sahələrdəki monopoliya aradan qalxmalıdır, yanaşma şəkli dəyişməlidir"

**"Bizim qonaq" rubrikasının növbəti müsahibi millət vəkili Qənirə Paşayeva oldu. Görüşdə qəzetimizin baş redaktoru Rauf Arifoğlu, baş redaktorun birinci müavini Azər Ayxan, baş direktor Ələsgər Süleymanov, musavat.com saytının redaktoru Xalid Kazımlı və bu sətirlərin müəllifi iştirak edirdi. Qənirə xanımla həyat yolu, ölkədəki iqtisadi-siyasi proseslər, Dağlıq Qarabağ məsələsi və digər önəmli mövzular ətrafında söhbət etdik.**

*(əvvəli ötən sayımızda)*

***- Sonra da indi oturduğunuz parlamentə müxbir kimi gəldiniz... Jurnalistikadan böyük siyasətə keçid necə prosesdir?***

- Mən buna siyasətə keçid deməzdim. Çünki mənim həyatda heç zaman siyasi ambisiyalarım olmayıb. Mənim həmişə tək istəyim insanlara faydalı olmaq olub və bu parlamentdə də belədir. Sabah haraya getsəm də yanaşma tərzim bu cür olacaq. "Niyə mən bu işlə məşğul oluram" sualına bir cavabım var: insanlara faydalı olmaq üçün... Millət vəkili kimi mən heç bir partiyada təmsil olunmuram. Bu yer mənə daha çox insana kömək etməyə imkan yaradır. İnsanlara faydalı olmaq üçün bundan maksimal şəkildə istifadə edirəm. Mənə parlament jurnalistləri də "Seçici hüquqlarının müdafiəsi" nominasiyasında mükafat veriblər. Bu mənim üçün çox anlamlı oldu.

***- Yaradıcılıq həzzi deyilən bir şey var. Bunu yaradıcı insanlar yaxşı bilir. O həzzmi gözəldir, yoxsa insanlara yardım etmək həzzimi?***

- İkisi də gözəldir.

***- Onlar bir yerdə uzlaşırmı?***

- Bəli, çünki onların ikisi də bir şeydən qaynaqlanır- sevgidən! Sevgidən qaynaqlandığı üçün ikisi də sizə zövq verir. İnsanlara faydalı olmaq mənə daha çox zövq verir. Əgər bir insanın gözlərində yox olmuş işıqdan balaca bir qığılcımı qaytarırsınızsa, bundan alacağınız zövqü heç nədən ala bilməzsiniz. Nə gözəl hotellər, istirahət mərkəzləri, nə bahalı avtomobillər, heç nə onun əvəzini verə bilməz. Bir insanın gözlərində sevinc işığı, ümid işığı yandırmaq, onun dilindən "Allah razı olsun" ifadəsini eşitmək bir başqa hissdir. Yaradıcılıq isə sizin öz dünyanızdır, özünüzlə baş-başa qalırsınız, hər şeydən qaçırsınız.

***- Ancaq son zamanlar sanki yaradıcılığa daha çox zaman ayırırsınız. Kitabların çapı, sosial şəbəkədəki səhifənizdə şeirlər yayımlayırsınız, şeirlərinizə mahnılar bəstələnir. Sanki yaradıcılığa ehtiyac yaranıb.***

- İnsan bəzən nələrisə yazıb paylaşmaq istəyir, elə bir dönəm də olur ki, heç nə yazmaq istəmirsən. Yazmaq elə bir şeydir ki, planlı olmur. Planlı şəkildə ancaq xəbər, məqalə yaza bilərsən. Necə ki, biz jurnalist işləmişik, istəsək də, istəməsək də hər gün reportaj hazırlamışıq, yazı yazmışıq. Bir var ki, yazı yazmaq sizin işlə bağlı məcburiyyətinizdir. Bir də var ki, heç bir məcburiyyətiniz yoxdur, sizi heç kim məcbur etmir, yazmasanız da insanların sizdən gözləntisi yoxdur. Bu yazmaq sizin daxilinizdəki bir tələbat, bir aclıqdır. O baxımdan, yazmaq istəyirsiniz. Sizin dediyiniz yazıları ehtiyac olandan-olana yazırıq. Bir də var ki, yazmaq istədiyim yazılar. Məsələn, türk dünyası ilə bağlı kitablar düşünülərək yazılır. Mən həm jurnalist işlədiyim dövrdə, həm də sonrakı fəaliyyətimdə həmin bölgələri addım-addım gəzmişəm. İstəyirəm ki, gənclərimiz türk dünyasını yaxşı tanısın. Çünki insan tanımadığı, bilmədiyi bir şeyə sahiblənə bilməz. Ona görə də indi bizim bu cür kitablara çox ehtiyacımız var. "Addım-addım Türkiyə", "Addım-addım Türk dünyası", "Addım-addım Qaqauz", Ahısxa türkləri ilə bağlı "Vətən qoxusu" kitablarını daha çox düşünərək yazmışam. Təbii ki, burada da insan qəlbi var. Lakin düşünürəm ki, mən bu bölgələri addım-addım gəzmişəm, onları yazsam, 300-500 gənc bundan bilgi alsa, faydalı olar. Bəzi yazılar da var ki, onlar düşünülərək yazılmır. Onlar illərlə içimizdə yığılan sözlərdir. Mən iki şeir yazmışdım. Biri "Qapını aç bu quluna, ey Rəbbim", biri də "Öyrəndim" şeiri idi. Yadımdadır, o şeiri yazarkən anam qapını döydü. Bizim ailədə anamızın bir başqa yeri var. O gəlib qapını döydüsə, bir şey istədisə, "işim var", "gözlə" kimi sözlər yoxdur. Anam gəldisə, hər şey bitir, "bu dəqiqə" deyib dururuq. Bu şeiri yazarkən anam gəldi və mənimlə bir məsələ haqqında söhbət etmək istədiyini dedi. Dedim ki, mənə bir 15 dəqiqə vaxt verərsən, yazıram. Bu onun üçün alışmadığı bir vəziyyət idi. Düşündü ki, yəqin çox ciddi bir yazıdır. Mən şeiri yazdım. Yadımdadır, Camalnur Sarqutla görüşəndə bu şeirləri 15-20 dəqiqəyə yazdığımı dedim. O isə yaza bilməzsən, dedi. Onun "bu şeir 15 -20 dəqiqəyə yazılamaz" sözünü mən texniki mənada başa düşdüm. Dedim ola bilər ki, yarım saata yazmışam. Dedi ki, yox belə şeirlər illərlə yazılır, 15-20 dəqiqəyə sən onu kağıza köçürmüsən. Bəzi şeirlər var ki, o sizin içinizdə illərlə yazılır və siz bir gün onu kağıza köçürmə ehtiyacı duyursunuz. Duyğularınızın elə bir anı olur ki, dillə söyləyə bilmədiklərinizi kağıza köçürürsünüz. Bu kimi fərqli-fərqli yanaşmalar var yazılarda...

***N.Liftiyeva:***

***- Qənirə xanım, bir gün öncə bölgələrdən paytaxta dönmüsünüz. Yəqin ki, orada müəyyən müşahidələriniz olub. Mən istərdim ki, bölgələrdəki iqtisadi durumu dəyərləndirəsiniz...***

- Bu çox ağır məsələdir. Bölgələrdə iqtisadi məsələlərlə bağlı problem az deyil. Mən millət vəkili seçildiyim Tovuz rayonundan danışa bilərəm. İş yerləri ilə bağlı problem var. Yeni iş yerlərini artıracaq layihələrin həyata keçirilməsinə ciddi ehtiyac var. Mən bunu parlamentdə də dedim ki, rayona rəhbərlik edən qurumların yanaşmasında əsas fəlsəfə insan faktoru üzərində qurulmalıdır. Bir layihə ki, insanlara xidmət edəcək, həmin layihələrə dəstək artmalıdır. Tovuz kökənli olan, lakin indi Tovuzdan kənarda yaşayan imkanlı insanlar var, onların şirkətləri var. Onların gəlib rayonda iş yerləri açmasına şərait yaratmaq lazımdır. Rayon rəhbərliyi də onlara dəstək verməlidir, torpaq ayırmaq və sair şəkildə... Bu cür projeləri artırmaq lazımdır.

***A.Ayxan:***

***- Yerli məmurlar bu cür iş adamlarına mane olurlarmı?***

- İndi mane olmaqdan daha çox, dəstək olmaqdan danışmaq lazımdır. Bu gün beynəlxalq aləmdə gedən prosesləri, ölkəmizdə yaşanan devalvasiya və sair faktorları nəzərə alaraq əngəl olmağa yox, daha çox dəstək olmağa çalışmaq lazımdır.

***- Dəstək olurlarmı?***

- Mən bütün rayonlar haqqında danışa bilmərəm, bu doğru olmazdı. Hesab edirəm ki, təmsil etdiyim Tovuz rayonunda bu dəstəyin artmasına çox ehtiyac var. Özəlliklə icra və bələdiyyələr tərəfindən. Mən son günlər rayonda idim, bələdiyyə və icra nümayəndələri ilə imkansız ailələri ziyarət edirdik. Orada elə ailələr var ki, övladları yoxdur, çətin vəziyyətdədirlər, bəzilərində ağır xəstələr var, əlillər var. Çox çətin vəziyyətdə olan ailələr olur. Kəndlərimizdə bu cür ailələri gəzirdik. Mən hər zaman deyirəm ki, burada söhbət təkcə dövlətin verdiyi büdcəni idarə etməkdən getmir. Kəndlərdə imkanlı insanlar da var. Yaxşı idarəçi odur ki, yaxşı mühit yaratsın və insanları o proseslərə cəlb edə bilsin. Şəxsən mən inanıram ki, kəndlərdə bu iş sistemli şəkildə təşkil olunarsa, 10-15 imkansız adamın problemləri həll edilər. Kənddəki imkanlı insanlar bu imkansız ailələrə yardım etsələr, bir kənd icması toplansa, kəndin ziyalıları, imkanlı insanları toplansa o ailələrin ehtiyacları bir büdcə şəklində yazılsa, hesablansa, hər kəs müəyyən hissəsini öz üzərinə götürsə, ehtiyaclı insan qalmaz. Ayda bir dəfə kəndin imkanlı şəxsləri toplanıb bu problemləri müzakirə edə bilərlər. Mən inanıram ki, bunu etmək istəyənlər olacaq, istəməyənlər də olacaq. O səbəbdən çox işləmək lazımdır. "Bu mənim işim deyil" prinsipi ilə məsələ həllini tapmaz. Mənə rayonda bəziləri qəribə baxır ki, səhər saat 9-un yarısında millət vəkilinin Qədirli, Cilovdarlı kəndlərində nə işi var. Seçki dövrü deyil, seçkiyə bir il qalmayıb. Köhnədən məni tanıyanlar bilir, yeni təyin olunanlar isə qəribə baxırdılar ki, qışın ortasında, səhərin soyuğundan bu bizi niyə çağırıb. Soruşuram ki, kənddə qaz ola-ola bu ailə niyə qazsız, odunsuz qalıb? Deyirlər ki, ödəməyə imkanı yoxdur. Deyirəm ki, bu ailənin bir ayda evini isitməyə nə qədər qaz lazım olar, 20-30 manatlıq. Bu pulu biz haradansa tapa bilərik, axı bu ailə niyə soyuqda qalsın. Cavab verirlər ki, "bəli, Qənirə xanım, doğru deyirsiniz". Söhbət ondan getmir ki, hər kəs sadəcə öz işini görməlidir. Əgər ehtiyac olan insanlar varsa, onlara qarşı da diqqətli olmaq lazımdır. Təşəbbüskarlıq lazımdır, faydalı olmaq, bununla fərqlənməyə çalışmaq lazımdır. Kəndlərdə buna çox ehtiyac var. Böyük sərmayələr gələndə daha çox rayonun mərkəzinə gedir. Amma kəndlərdə canlanmanı yaratmaq üçün bu kimi faktorlara ehtiyac var. Bir də kənd təsərrüfatı ilə bağlı həllini gözləyən məsələlər var. Tovuzda kənd təsərrüfatı nazirinin iştirakı ilə böyük bir müzakirə oldu, 4 saatdan artıq davam etdi. Rayonun bütün kəndlərindən insanlar gəlmişdilər. Orada mən zarafatla dedim ki, Heydər müəllim, bunların bəziləri bəlkə də indi danışmağa utanacaq. Ancaq onların hər gün mənə dediklərini, kənd-kənd bildiklərimi mən məruzə edim. Kənd təsərrüfatı susuz olmaz.

***A.Ayxan:***

***- Bəli, kəndlərdə su böyük problemdir.***

- Təsərrüfat üçün lazım olan faktorlardan biri sudur. Tovuz rayonunun ciddi su problemi var. Orada insanlar torpaqda işləməyə qoçaqdır, tənbəl deyillər. Ancaq su olmadan və ya çox bahalı aldığınız su ilə kənd təsərrüfatında məhsuldarlıq əldə edə bilərsinizmi? Onu yığıb satmaqla həmin vəsaiti əldə etmək mümkünsüzdür. Tovuzda bir çox layihələr həyata keçirildi. Ağdam kəndində su anbarı tikildi, Əlibəylidə istifadəyə verildi. Amma yenə də su ilə bağlı problem həllini tapmayıb. Çünki təbii su azalması da var. Ağstafa çayından su alırıq, azalıb. Şəmkirdən su alırıq, azalıb. Ona görə də əlavə su mənbələrinin tapılmasına ehtiyac var. Mən bu məsələni parlamentdə də qaldırmışam. Kür çayından hansısa vasitələrlə ətrafdakı kəndlərə suyun verilməsinə nail olmaq olar. İkincisi bazara çıxış məsələsidir. Mən uşaq olanda bizim kəndimizin bəzi adamları işləmirdilər, sadəcə, əkin sahələrindən yığdıqları məhsulla 4-5 uşağına ali təhsil verə bilirdilər. Yəqin ki, sizin də kəndinizdə belə adamlar var.

***- Bəli, əkib-becərib satırdılar.***

- Ən əsası isə o məhsulu dəyərində sata bilirdilər. İndi isə onlar sata bilmirlər. Sizin, mənim kimi alıcılar isə gedib həmin məhsulu bazardan baha alırıq. Qazanan kiçik bir qrup var ki, onlar heç nə etmədən pul qazanırlar. Satan da, istehsal edən də qazana bilmir. Şəhərdə oturub 300 manat maaş alan insana da bazarda məhsulu o qiymətə almaq sərf eləmir, istəyir ki, bir qədər ucuz alsın. Bəzən insanlar deyir ki, kəndlilər məhsulu baha satır. Mən deyirəm ki, xeyr, kəndlilər onu bu qiymətə sata bilmirlər, qəpik-quruşa satırlar. Ona görə də kənddəki istehsalçıların bazara öz məhsulunu çıxartmaq imkanı yoxdur. Bir qədər də böyük təsərrüfatı olanların, fermerin isə ixrac imkanları yoxdur. Ən azından yol kənarlarında məhsulların satışına icazə verilməlidir. Mən qaydasızlığın da əleyhinəyəm. Ancaq hesab edirəm ki, kəndliyə dəstək olmaq üçün onlara mane olmamaq lazımdır. Döymək, vurmaq, incitmək olmaz. Və ya pul alan kimi hər şey qaydalara uyğun olur, pul verməyəndə qaydasız. Yaxşı olar ki, bunu qayda şəklinə salaq, yarmarkalar təşkil edək. Bunları da həyata keçirmək lazımdır. İndi kənd təsərrüfatı ilə bağlı yeni proqram var, onlar açıqlandı. İnsanlar var ki, torpaq sahələri var idi, lakin texnikanı ala bilmirdi. İndi dövlətin dəstəyi var, 40 faizini dövlət verir, 60 faizini isə özü tədricən ödəyəcək. Tovuzda bəzi fermerlər bu texnikanı ala bildilər.

Çox ciddi bir məsələ də toxumçuluqdur. Mən Tailandda Kral İnstitutunun bir layihəsini gördüm, onu toxumluğu qorumaq məqsədilə edirdilər. Çünki saxtakar iş adamları var ki, yararsız toxum satırlar. Fermer o toxumları alıb əkir, zəhmət və xərc çəkir, lakin bir faydasını görə bilmir. Bu məsələyə dövlətin nəzarəti və dəstəyi artmalıdır. Çünki insan bir dəfə zərər edirsə, ikinci dəfə əkmir. Kənd təsərrüfatına dəstəyi artırmaq lazımdır.

***- Azərbaycan hökuməti nə qədər fədakarlıq etsə də, neft ehtiyatlarından xərcləyib manatı güclü saxlamağa çalışsa da, beynəlxalq aləmdəki böhran buraya da gəldi. Bu böhrandan çıxmaq üçün dövlət də yollar axtarır. Siz də parlamentdəsiniz. Bu yol axtarışı təsisatlarından biri də parlamentdir. Bir deputat kimi siz necə düşünürsünüz, kənd təsərrüfatı çıxış yollarından biridirmi?***

- Monopoliyaların tam şəkildə aradan qalxmasına ehtiyac var. Təmiz rəqabət olmalıdır və insanlar üçün imkanlar yaradılmalıdır. Bu çox önəmlidir. Monopoliyaya qarşı mübarizə güclənməlidir. Kimin qabiliyyəti və imkanları varsa, ona qapılar açılmalıdır.

***- Daha çox hansı monopoliyanı nəzərdə tutursunuz? Gömrükdəki monopoliya, yoxsa biznesdəki, vergi sistemindəki?***

- Problem bir-iki sahədə deyil, bütün sahələrdəki monopoliya aradan qalxmalıdır. Yanaşma şəkli dəyişməlidir. Siz bir işə başlamaq istəyirsiniz və hərə bir bəhanə ilə gəlir, nəsə maraq güdür, o maraq təmin olunmadıqda isə sizə əngəl olmağa çalışır. Dövlətin məmuru dövlətin siyasətini dəstəkləməlidir. Dövlətin məmuru o demək deyil ki, oturduğu kreslodan öz maraqlarını təmin etmək üçün istifadə etsin. Dövlət məmuru ictimai maraqları öz maraqlarından öndə tutan deməkdir. Ancaq öz maraqlarının dövlətin və ictimaiyyətin maraqlarından üstün tutulması dövlət məmuru anlayışı ilə uyğun gəlmir. Bunlar dövlətin siyasətinə əngəl olurlar. Kimlərsə öz işini doğru yerinə yetirmirsə, onlar yavaş-yavaş tamamilə uzaqlaşdırılmalıdır. Monopoliya, korrupsiya tamamilə aradan qaldırılmalıdır. Dövlət məmurlarının iş adamlarına təzyiq mexanizmini tamamilə aradan qaldırmaq lazımdır. "ASAN xidmət" nə qədər problemləri aradan qaldırdı. Bütün sektorlarda məmurların təzyiq mexanizmini minimallaşdırmaq lazımdır.

***- Bütövlükdə dövlətin idarəetməsini, icra strukturlarını, hər şeyi ASAN sisteminə keçirmək olmazmı? Prezident də bu barədə dəfələrlə deyib, hədəf göstərib. Ancaq sanki proses ləng gedir...***

*(davamı növbəti sayımızda)*

Söhbəti qələmə aldı:

**Nərgiz LİFTİYEVA**

**Fotolar Məhəmməd TÜRKMƏNindir**






## "İnsanlara faydalı olmaq mənə zövq verir"

## "Öz maraqlarını üstün tutan məmurlar dövlətin siyasətinə əngəl olurlar"



## "Kənddəki istehsalçılar öz məhsulunu qəpik-quruşa satırlar"



**Rusiya xarici işlər naziri Sergey Lavrovun Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın daxili işi olmadığını, həmçinin münaqişənin dinc yollarla nizama salınmasına alternativ olmadığını bəyan etməsi Ermənistanda məmnunluqla qarşılanıb. İşğalçı ölkənin ekspertləri Moskvadan verilən dəstəyin fonunda daha cəsarətli danışmağa başlayıblar.**

# Lavrovun bəyanatına vitse-spikerdən etiraz - Rusiya nədən narazıdır...

## Rusiya XİN-in erməni başçısının anti-Azərbaycan mövqeyinə parlament rəhbərliyi də reaksiya verdi; **politoloq:** "Lavrovun açıqlamaları eyni zamanda onu göstərir ki, rəsmi Bakı Moskvanın gözləntilərinə uyğun addımlar atmır"

Azərbaycanda isə Rusiyanın baş diplomatının vasitəçilik prinsiplərindən kənar mövqe sərgiləməsinə etirazlar davam edir. "Rusiyanın xarici işlər naziri Sergey Lavrov bugünkü vəziyyətə adekvat mövqe sərgiləməli idi". Bunu Milli Məclisin sədr müavini Bahar Muradova jurnalistlərə açıqlamasında deyib. Modern.az-ın xəbərinə görə, vitse-spiker Rusiyanın Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı geniş imkanlarının olduğunu bildirib. "Rusiya Azərbaycana dost-tərəfdaş ölkədir. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bununla bağlı mövqeyini ifadə edib. Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı kimlərinsə müxtəlif mənalar ifadə edən fikirlərindən daha çox real hərəkət gözləyirik".

**Politoloq Şahin Cəfərli "Yeni Müsavat"a bildirdi ki, Lavrov əslində Azərbaycanda üstü örtülən, yaxud bizim etiraf etmək və özümüzə yaxın buraxmaq istəmədiyimiz acı reallıqları üzümüzə vurdu:** "Bu reallıq ondan ibarətdir ki, münaqişənin siyasi yolla həlli prosesi Azərbaycanın maraqlarına uyğun gəlmir. Özü də bu, indinin məsələsi deyil. Həmsədrlər hələ 2007-ci ilin noyabrında Madriddə münaqişə tərəflərinə həll prinsiplərini təqdim ediblər, 2009-cu ilin iyulunda da yenilənmiş Madrid prinsipləri masaya qoyulub. Bu prinsiplər həmsədr ölkə prezidentlərinin verdikləri birgə bəyanatlarda da əksini tapıb. İndi Lavrov da məhz həmin prinsiplər əsasında bu cür danışır. Yəni sülh danışıqları bizim üçün əlverişli olmayan hüquqi təmələ əsaslanır. Bu, onu göstərir ki, Azərbaycanın Qarabağ diplomatiyası düzgün qurulmayıb və uğurla nəticələnməyib. Madrid prinsipləri təklif olunduğu andan rədd edilməli idi, o prinsiplərdə problemə yanaşma kökündən səhvdir". **Siyasi şərhçinin fikrincə, Madrid prinsipləri Azərbaycanın işğal olunmuş torpaqlarını iki fərqli kateqoriyaya ayırır:** "Dağlıq Qarabağ mübahisəli ərazi sayılır və işğal olunmuş ərazilər kimi yalnız ətraf rayonlar nəzərdə tutulur. Dağlıq Qarabağın hüquqi statusunun bu ərazidə keçiriləcək "öz iradəsini azad ifadəetmə", yəni referendum vasitəsilə müəyyənləşdirilməsi əksini tapıb. Dağlıq Qarabağda keçiriləcək referendumdan separatçıları və Ermənistanı qane edən nəticənin çıxacağı isə hamıya aydındır. Vaxtilə Dağlıq Qarabağda yaşamış azərbaycanlı əhalinin öz evlərinə qayıtması da səsvermənin nəticələrinə həlledici təsir göstərməyəcək. Bu cür yanlış təməl üzərində ədalətli sülh qurula bilməz. Burada əlverişsiz məqam həm də ondan ibarətdir ki, ətraf rayonların qaytarılması ilə status məsələsi birgə götürülür və paket həll nəzərdə tutulur. Yeni Azərbaycan ətraf rayonları təhvil almaq üçün faktiki olaraq Dağlıq Qarabağın itirilməsi variantına razılaşmağa məcbur edilir". **Ş.Cəfərli qeyd etdi ki, Lavrov da məhz buna işarə vurub:** "Üstəlik, rayonlar qaytarılarkən təmas xəttinə və Ermənistan-Dağlıq Qarabağ dəhlizinin təhlükəsizliyi üçün Laçın və Kəlbəcərə sülhməramlı kontingent yerləşdirilməsi planlaşdırılır. Bu kontingentin komandanı və üzvlərinin önəmli bölümü yəqin ki, ruslar olacaq. Rusiya çalışacaq ki, münaqişə həll olunduqdan sonra da Azərbaycanı mümkün qədər öz nüfuz dairəsində saxlasın və onun avroatlantik inteqrasiya yolu ilə getməsinə imkan verməsin". **Politoloqun fikrincə, Lavrovun açıqlamaları eyni zamanda onu göstərir ki, rəsmi Bakı Moskvanın gözləntilərinə uyğun addımlar atmır:** "Yadınızdadırsa, aprel döyüşlərindən sonra Lavrov Azərbaycanı Avrasiya İttifaqında və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında görmək istədiklərini bildirmişdi. Lakin Azərbaycan hakimiyyəti müstəqilliyin məhdudlaşması anlamına gələn bu addıma getmədi. Digər tərəfdən, rəsmi Bakı münaqişənin həlli prosesinin tamamilə Rusiyanın inhisarında olduğu hazırkı məqamda Kremlin maraqlarına uyğun həll variantına da razılaşmır. Rusiya ehtiyatlanır ki, zaman uzandıqca hazırkı reallıqlar dəyişə bilər və həll prosesində onun arbitrliyi aradan qalxar. Görünür, bütün bunlar Moskvada qəzəb doğurub və Lavrovun məlum açıqlamaları da bundan irəli gəlir".



**Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyev isə Lavrovun bəyanatını gözlənilməz hesab etmədiyini bildirdi:** "Kim Rusiyadan Qarabağ mövzusunda ədalətli və tərəfsiz mövqe gözləyirsə, onun siyasətdən anlayışı mövcud deyil. Ermənistan Rusiyanın Qafqazda qalma lövbəridir. Ermənistan layihəsi xristian dünyasının Qafqazı nəzarətdə saxlamaq planıdır. Bugünkü dinməz bölgüyə görə isə Qafqaz Rusiyanın nəzarətinə verilib. Ey mənim sadəlövh, bəzən özünü belə göstərən, həmvətənlərim! Kələntərov-Lavrov milliyyətcə erməni, Putinin silah arkadaşıdır. Əmin olun və YAP-ın nağıllarına inanmayın ki, Rusiya bizə yardım edə bilər". **Ə.Əliyevin sözlərinə görə, aprel döyüşlərində Rusiyanın rəsmi mövqeyi bir daha göründü. VİP sədri hakim partiyanı ehtiyatlı mövqeyinə görə də tənqid etdi:** "Baxın, YAP siyasi təbliğatı nəyə qürrələnir- "Soçidəki KVN yarışmasından Qarabağ brendli komandalar kənarlaşdırıldı". Konstitusiya bunumu tələb edir sizdən?! Bəynmədiyiniz və vaxtında mane olduğunuz AXC-Müsavat hakimiyyəti Xankəndinin kandarında idi. Erməni deputatları yalvarışla Bakıya heyət göndərirdi. Budurmu sizin siyasi məharətiniz?!" **Ə.Əliyev ölkə ictimaiyyətinə xitabən Lavrovu qınamağa yer olmadığını vurğuladı:** "Lavrov ermənidir və Rusiyadan erməninin nicatı yolunda vasitə kimi istifadə edir. Məhz onun təyinatının nəticəsidir ki, ən çox soydaşımızın yaşadığı, Azərbaycana ən ciddi təsirə malik İranda, ən təhlükəli qonşumuz Rusiyanın səfiri də milliyyətcə ermənidir. Buna nə sözünüz? Lavrov öz millətinə xidmətdədir".

❑ **Cavid TURAN**

# Əli İnsanovun borcunu silib özünü həbsdə saxladılar - anlaşma iddiaları




## Sabiq nazirin apelyasiya şikayəti təmin edilmədi, vergi borcunun silinməsinə və susqunluğa səbəb nə?

**Bakı Apelyasiya Məhkəməsində sabiq səhiyyə naziri Əli İnsanovun barəsində olan həbs-qətimkan tədbirinin artırılması ilə bağlı Qaradağ Rayon Məhkəməsinin qərarından verilmiş apelyasiya şikayətinə baxılıb. Bu barədə Ə.İnsanovun vəkili Toğrul Babayev məlumat verib. Hakim İlqar Murquzovun sədrliyi ilə keçirilən prosesdə araşdırılan şikayət təmin edilməyib. Məhkəmə birinci instansiya məhkəməsinin qərarını qüvvəsində saxlayıb ("Trend").**

Xatırladaq ki, oktyabrın 11-də Ə.İnsanov barəsində Qaradağ Rayon Məhkəməsinin qərarı ilə 3 aylıq həbs-qətimkan tədbiri seçilib. Yanvarın 11-də prokurorluğun təqdimatı ilə Qaradağ Rayon Məhkəməsi Ə.İnsanov barəsində həbs-qətimkan tədbirinin daha 2 ay uzadılması barədə qərar çıxarıb. Qərarla razılaşmayan Ə.İnsanov apelyasiya şikayəti vermişdi.

Qeyd edək ki, avqustun 24-də həbsdə olan sabiq səhiyyə naziri Ə.İnsanov barəsində Cinayət Məcəlləsinin 234.1 (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 315.2 (hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar


İlqar Murquzov

ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə, bu maddədə göstərilən şəxslərə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) və 317-2.1-ci (cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi, eyni əməllər təkrar törədildikdə) maddələri ilə cinayət işi başlanıb.

Ə.İnsanov 2005-ci ilin oktyabr ayında həbs edilib. O, dövlət vəsaitlərinin mənimsənilməsində və dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham olunub. 2007-ci ilin aprel ayında Ə.İnsanov Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə əmlakı müsadirə olunmaqla və 3 il ərzində dövlət vəzifəsi tutması qadağan edilməklə, 11 il müddətinə azadlıqdan məhrum edilib.

Ə.İnsanovun şikayətinin təmin edilməməsi Vergilər Nazirliyinin sabiq nazirin 17 min manat vergi borcunun silinməsi ilə bağlı eyni vaxta təsadüf edib. Yanvarın 18-də nazirlik "Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Qanunun 1-ci, 2.1-ci və 3-cü maddələrinə əsasən faiz və maliyyə sanksiyaları üzrə 01.01.2017-ci il tarixə mövcud olan borcları qeyd-şərtsiz silinmiş şəxslərin siyahısını açıqlayıb. Vergi borcu silinənlər içərisində eks nazirin də adı var ki, bu da müxtəlif iddialara səbəb olub. Mediada iddialar var ki, bununla iqtidar sabiq nazirə loyal münasibət nümayiş etdirib, hətta Ə.İnsanovun yaxın gələcəkdə azadlığa buraxılacağı və barəsində açılan yeni cinayət işinə xitam veriləcəyi gözlənilir. İddia olunur ki, buna görə də Ə. İnsanov açılan yeni cinayət işinin istintaqı dövründə susmağa üstünlük verib.

❑ **"YM"**

YENİ MÜSAVAT
N 13 (6627) 20 yanvar 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Qarabağ konfliktinin həll açarı kimdədir - köhnə sual təzədən gündəmdə

## Status-kvonun uzanması sualı yenidən aktuallaşdırıb; Azərbaycan daha çox "dərd ortaqları" olan ölkələrlə əlaqələri möhkəmlətmək zorundadır; **rusiyalı politoloq:** "Kremlin Qarabağ məsələsində mövqeyi dəyişməyib..."



**Rusiya xarici işlər naziri Sergey Lavrovun Qarabağ mövzusunda son açıqlamaları Kremlin "Yaxın xaric" ölkələrinə imperialist yanaşmasını bir daha ortaya qoydu. Bir daha aydın oldu ki, Rusiya, necə deyərlər, özünə rəva görmədiyini nəinki qonşu ölkələrə görür, üstəlik, bunu nümayişkaranə şəkildə etməkdən çəkinmir. Erməni əsilli XİN rəhbəri Lavrov təbii ki, sıradan biri deyil və böyük ölçüdə öz ölkəsinin rəhbərliyinin yanaşmasını ortaya qoyur. Bu yanaşmanın mahiyyətində Moskvanın MDB ölkələrinə münasibətdə "parçala və hökm sür" klassik imperiya siyasəti dayanır.**




Diqqət edin, Rusiya onun siyasətini bölüşməyən keçmiş sovet respublikalarının hamısını "yaralayıb", bu ölkələrdə etnik-ərazi konfliktləri yaradıb və idarə edir. Bir qismində (Azərbaycan) işğala ortaqlıq edib, digər qismində isə (Moldova, Gürcüstan, Ukrayna) şəriksiz işğalçı elə özüdür. O, hətta indi Baltikyanı ölkələri qarışdırmaq planları cızır.

*****

Ukraynadan söz düşmüşkən, bu arada Azərbaycan prezidenti İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində ukraynalı həmkarı Pyotr Poroşenko ilə görüşüb. Söhbət zamanı iki ölkə arasında iqtisadi əlaqələrlə yanaşı, regional məsələlər, o cümlədən Dağlıq Qarabağ problemi də müzakirə olunub. "Azərbaycanın Ukraynaya yatırdığı investisiyaların həcmi 200 milyon dollara çatıb" deyən prezident İlham Əliyev Kiyevlə əlaqələrin önəmini qeyd edib.

İki ölkə lideri söhbət zamanı Ukrayna iqtisadiyyatına yatırılan bu investisiyaların həcminin artırılması üzrə layihələri də müzakirə ediblər. Ukrayna prezidenti Azərbaycan neftinin Ukraynaya tədarükünün bərpa olunması münasibətilə İlham Əliyevi təbrik edib. O, Azərbaycan prezidentini ölkəsinə səfərə dəvət edib və dəvət qəbul edilib. Poroşenko həmçinin Ukraynanın Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ regionunda yaradılan separatçı rejimi heç vaxt tanımayacağını da bəyan edib.

**"Mən dəqiq vurğulamaq istəyirəm ki, Ukrayna Dağlıq Qarabağın sənədlərinin müvafiq sertifikatlaşdırılmasını qəbul etmir və etməyəcək və biz Azərbaycanın Krımla bağlı tutduğu analoji mövqeyi alqışlayırıq"**, - deyə Ukraynanın dövlət başçısı qeyd edib.

*****

Ukrayna prezidentinin bu mövqeyi Rusiya xarici işlər naziri Sergey Lavrovun məlum açıqlamaları fonunda xüsusilə əhəmiyyətlidir. Yəni iki dövlət sözsüz ki, ən əvvəl dərd ortaqlarıdır. Azərbaycan məhz bu dövlətlərlə - ərazi bütövlüyümüzü nala-mıxa vurmadan, qeyd-şərtsiz müdafiə edən dövlətlərlə, ələlxüsus da bu mövqeyə malik nüfuzlu dövlətlərlə, dost-müttəfiq ölkələrlə əlaqələrin inkişafına ciddi diqqət ayırmalıdır və ayırır da.

Hərgah, rusiyalı tanınmış politoloq, prezident Vladimir Putinin etibarlı şəxsi kimi tanınan Sergey Markov iddia edir ki, nazir Sergey Lavrovun məlum fikirləri KİV-lərdə bir qədər yanlış anlaşılıb və Rusiya da Azərbaycanın ərazi bütövlüyün dəstəkləyir. Musavat.com-un məlumatına görə, bu barədə o, Lavrovun illik mətbuat konfransında Dağlıq Qarabağ mövzusunda söylədiyi fikirləri şərh edərkən deyib. Yəni faktiki şəkildə Rusiya XİN başçısını korrektə edib. Nə dərəcədə bu uğurlu olub, alınıb, onu politoloqun sözlərindən görmək olar.

**Məsələn, Markov deyib ki, Azərbaycan özü Dağlıq Qarabağ probleminin həlli üçün beynəlxalq birliyi, beynəlxalq strukturları, o cümlədən Rusiyanın da daxil olduğu ATƏT-in Minsk Qrupunu vasitəçi qismində dəvət edib və vasitəçilərin dəvət olunması tamamilə düzgün qərar olub, nədən ki, Dağlıq Qarabağa dair məsələlər beynəlxalq prinsiplər çərçivəsində həll olunur.** "Biz hamımız gözəl bilirik ki, Rusiya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir" - ekspert ardınca qeyd edib.

Onun sözlərinə görə, Rusiya Azərbaycan-Ermənistan nizamlanması çərçivəsində nə edirsə, hər iki tərəfin razılığı ilə edir. Bu xüsusda Markov hesab edir ki, Rusiya XİN başçısının sözlərini Moskvanın Azərbaycanın öz daxili işləri ilə məşğul olmasına qadağa kimi, Dağlıq Qarabağ konfliktini daxili işlər müstəvisindən çıxarmaq kimi təqdim eləmək yanlışdır.

**Markova görə, Rusiyanın mövqeyi əvvəlki kimi qalır:** "Bu mövqe ondan ibarətdir ki, Azərbaycan və Ermənistan münaqişə ilə bağlı kompromisə gəlməlidir. Özü də prezident Vladimir Putinin dediyi kimi, konfliktin nizamlanması nəticəsində tərəflərdən heç biri özünü nə məğlub, nə də qalib hiss etməməlidir. Kompromis hər iki ölkənin həyati maraqları nəzərə alınmaqla tapılmalıdır, güzəştlərə hər iki tərəf getməlidir". Üstəlik, o hesab edir ki, "Kazan formulu" indi də kompromislər üçün tam zəmin yaradır və Moskva münaqişənin həllinə Türkiyəni də cəlb edəcək, çünki nizamlama baş tutacağı halda, Ankara Ermənistanla sərhədləri açmalı olacaq: "Ona görə də Türkiyənin iştirakı müəyyən mənada vacibdir".

**Markovun fikrincə, həmin sözlər onu sübut edir ki, Rusiya həm Azərbaycan, həm də Ermənistan üçün eyni dərəcədə faydalı olan vasitəçiliyə can atır.** "Moskva dəfələrlə qeyd edib və qeyd edir ki, konfliktin həlli Dağlıq Qarabağın Azərbaycan tərkibində qalmasını nəzərdə tutur" - politoloq vurğulayıb.

**Lakin o, konfliktin həll açarının Moskvada olması barədə fikirlərlə razılaşmır:** "Rusiya Ermənistanın sahibi deyil, hərçənd o, xeyli dərəcədə Rusiyadan asılıdır. O, sadəcə olaraq, Şərkisyana təzyiq edə bilməz ki, necə deyərlər, əraziləri qaytar. Ermənistandakı mürəkkəb siyasi və iqtisadi situasiyanı nəzərə almaq lazımdır - harada ki, radikal ovqatlı qruplar istənilən an güc yolu ilə hakimiyyəti ələ keçirə bilər. Bax, o zaman bütün Cənubi Qafqaz alovlana bilər... Hesab eləmək ki, Rusiya İrəvana təzyiq üçün bütün rıçaqlara malikdir, düz deyil. Konfliktin həll açarı isə müstəsna olaraq, münaqişə tərəflərini özündədir. Həll isə - onların kompromisə gəlməsidir", - deyə ekspert iddia edib.

*****

Əlbəttə ki, Ermənistana Rusiyanın təzyiq rıçaqları ilə məsələdə cənab Markov gerçəyi, yumşaq desək, kamifulyaj edir. Hər halda, belə bir daşlaşmış həqiqət var ki, Moskva doğrudan da istəsə, Ermənistanı asanca konstruktiv mövqeyə gətirə bilər. Lakin o, bunu etməyə tələsmir. Zira, belə bir rəy də var ki, Rusiya işğalçı Ermənistandan fərqli olaraq, Azərbaycandan Qarabağ konfliktindən dolayı istədiyini hələ ala bilməyib. Kəsəsi, həll açarı Moskvadadır. Hələ ki...



## MKİ Qarabağla bağlı şok sənəd yaydı

**ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) bir neçə gün öncə 900 mindən çox məxfi sənədi ictimailəşdirib (Trend). Məlumata görə, bu sənədlər arasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə məktub da yer alıb.**

MKİ direktoru Uilyam Uebsterin ABŞ vitse-prezidentinə yazdığı 16 iyun 1988-ci il tarixli məktubda qeyd olunur ki, hələ Rusiya imperiyası dövründən Moskva Qafqazdakı etnik qrupların maraqları ilə "oynayıb". U.Uebster məktubda onu da qeyd edib ki, ermənilərlə azərbaycanlılar arasındakı münaqişənin tarixi qədimdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 13 (6627) 20 yanvar 2017



# Davos forumu Azərbaycan iqtisadiyyatını xilas edəcəkmi?

**Hər ilin yanvarında olduğu kimi, bu il də İsveçrənin Davos şəhərində ənənəvi Ümumdünya İqtisadi Forumu (ÜİF) keçirilir. Sayca 49-cu olan forumda dünya liderləri, iri şirkətlərin rəhbərləri, ekspertlər beynəlxalq birliyin qarşılaşdığı çətinlikləri müzakirə edir, yeni il üçün iqtisadi gündəliyi müəyyənləşdirirlər.**

Forum yanvarın 21-nə kimi davam edəcək. Forumda Azərbaycan prezidenti İlham Əliyev də iştirak edir. Forumun hazırda iqtisadi çətinliklərlə üz-üzə qalan Azərbaycan üçün hansı perspektivlər vəd etdiyi də maraq doğurur.

"Prezident İlham Əliyevin forumda iştirakı həm iqtisadi, həm də siyasi planda növbəti uğurlu addımdır. Düzdür, Davosda beynəlxalq əhəmiyyətli qərarlar qəbul edilmir, lakin bu, nüfuzlu qeyri-rəsmi şəraitdə görüşüb dünya iqtisadiyyatı üçün əhəmiyyətli olan bir çox məsələləri müzakirə etməyə, vacib əlaqələr yaratmağa imkan verir". Bunu **Milli Məclisin deputatı Aydın Mirzəzadə** deyib.

Onun fikrincə, əgər əvvəllər Azərbaycan dünya ictimaiyyəti üçün enerji resursları ilə zəngin ölkə kimi maraq doğurursa, indi özünün strateji mövqeyi və iqtisadi gücü səviyyəsində ona olan maraq artıb: "Qeyd etmək lazımdır ki, Azərbaycan prezidenti bu cür forumlarda ən arzulanan qonaqlardandır. Forumun müxtəlif ölkələri təmsil edən qonaqlarının çoxu prezident İlham Əliyevlə şəxsən ünsiyyət qurmaq üçün maraq və həvəs göstərir. Bu fakt göstərir ki, Azərbaycan prezidentinin siyasi gündəliyi hər dəfə kifayət qədər sıx olur. Adətən bu cür beynəlxalq arenalarda belə vacib görüşlərdən sonra üçüncü ölkələrdə birgə fəaliyyət üçün münbit şərait yaranır" (day.az) Onun sözlərinə görə, Davos Forumu iqtisadi məsələlərdən başqa, dünya ictimaiyyətinin diqqətini Ermənistan-Azərbaycan münaqişəsinə də cəlb etmək üçün də növbəti imkandır.

Yeri gəlmişkən, Dünya İqtisadi Forumunun yeni məruzəsində bildirilir ki, Ermənistan inkişaf etməkdə olan 79 ölkə arasında məşğulluq, əmək haqqı, yaşayış səviyyəsi və sosial inteqrasiya baxımından heç də yüksək yerə sahib deyil (Trend). Onlardan 30-u inkişaf etmiş, 79-u isə inkişaf etməkdə olan ölkədir. Ermənistan reytinqdə 50-ci yeri tutmaqla qonşularından xeyli geri qalır - Azərbaycan (2-ci yer), Türkiyə (20-ci yer), İran (21-ci yer) və Gürcüstan (31-ci yer). Rusiya isə reytinqdə 13-cü sıradadır.



**Aydın Mirzəzadə:** "Adətən belə görüşlər üçüncü ölkələrdə birgə fəaliyyət üçün münbit şərait yaradır"



**Fikrət Yusifov:** "Keçirilən hər bir görüş Azərbaycanın təqdimatı deməkdir"

**Sabiq maliyyə naziri Fikrət Yusifov xatırlatdı ki, dünyanın müxtəlif ölkələrindən 1000-dən artıq iri şirkət və təşkilatlar 1971-ci ildə yaradılan Dünya İqtisadi Forumunun üzvləridir:** "DİF-nin əsas tədbiri ildə bir dəfə, ilin əvvəlində İsveçrənin Davos şəhərində keçirilir. Ənənəyə görə, qeyri-formal şəraitdə keçirilən bu görüşlərdə müasir dünyanın əsas problemləri, iqtisadiyyatın inkişafının perspektivləri, dünyada sabitliyin və ekoloji tarazlıqla bərpa olunması ilə bağlı məsələlər müzakirə olunur. Hər il Davos görüşləri çərçivəsində 300-dən çox plenar iclas, dəyirmi masalar, dövlət məmurlarının iştirakı ilə kiçik görüşlər keçirilir. Bu görüşlərdə hər hansı bir rəsmi sənəd qəbul edilmir. Forum, sadəcə olaraq, dünya iqtisadiyyatının bir çox vacib məsələlərini qeyri-formal şəraitdə müzakirə etməyə, yeni iqtisadi əməkdaşlıq əlaqələri qurmağa şərait yaradır. Hər bir ölkənin iqtisadiyyatının inkişafında xarici kapitalın rolu kifayət qədər böyükdür. Bu səbəbdən də hökumətlər öz imkanlarından istifadə edib, ölkəsinə daha çox xarici kapital axınının təmin edilməsinə çalışır. Bu, yenilik deyil, son onilliklər boyu bu yolu keçmiş bir çox ölkələrin iqtisadi uğurları hər kəsə bəllidir. Bu sırada Çin və Cənub Şərqi Asiya ölkələrinin bir çoxu bariz nümunədir. Bu gün xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsinin əhəmiyyəti daha da artıb desək, səhv etmərik. Dünyada gedən iqtisadi böhran fonunda, ayrı-ayrı ölkələrin hökumətləri və xüsusilə də iqtisadiyyatı neftlə bağlı olub, neftin qiymətlərinin kəskin azalması səbəbindən böyük valyuta gəlirləri itkisinə məruz qalmış ölkələr, indi xarici investisiyaları cəlb etmək üçün bütün mümkün imkanları bir araya gətirməyə çalışırlar. Xarici investisiyaların və sərfəli şərtlərlə alına biləcək kreditlərin ölkə iqtisadiyyatına cəlb edilməsinin yollarından biri də Davos Forumu kimi beynəlxalq tədbirlərdə iştirak etməkdən və orada potensial investorlarla müvafiq işlər aparmaqdan keçir".

**F.Yusifov qeyd etdi ki, belə görüşlər vasitəsilə ölkəmiz haqında, onun iqtisadi durumu və aparılan iqtisadi islahatlar barəsində məlumatların çatdırılması mühüm əhəmiyyət kəsb edir:** "Bu işin ölkə rəhbərliyi səviyyəsində aparılması investorlarda daha çox inam yarada bilir. Bu səbəbdən də Dünya İqtisadi Forumunda Azərbaycan prezidenti başda olmaqla, Azərbaycan nümayəndə heyətinin iştirakı tədqirəlayiqdir. Keçirilən hər bir görüş eyni zamanda Azərbaycandakı ictimai-siyasi durum, ölkə iqtisadiyyatının vəziyyəti, aparılan iqtisadi islahatlar barəsində bir təqdimat deməkdir".

❑ **Cavid TURAN**

# Hökumət dollara "həddini bildirdi" - 2 manat...



## Vüqar Bayramov: "Manatın bazar məzənnəsi müəyyənləşməyincə, real sektora sərmayələrin cəlb edilməsi çətin olacaq"

**Yanvarın 18-də manat rəsmi olaraq dollar qarşısında 2,7 qəpik və ya təxminən 1,5% bahalaşdı. Rəqəmlərə diqqət etdikdə görünür ki, son 3 hərracda dolların manata nisbətdə bahalaşması 3,2%-ə çatıb.**

Dünyada isə əksinə, proses gedir və dollar digər valyutalara nisbətdə ucuzlaşır. Ekspertlər hesab edirlər ki, dünyadan fərqli olaraq, Azərbaycanda dolların bahalaşmasının səbəbi başqadır. Belə ki, bildirilir ki, Mərkəzi Bank dolların məzənnəsini 2 manata çatdırmağı və bu səviyyələrdə sabitləşdirməyi qarşısına məqsəd qoyub. Buna səbəb isə tezliklə 2017-ci il üçün nəzərdə tutulan iqtisadi inkişafla bağlı planların həyata keçirilməsinə başlamaqdır.

Onu da qeyd edək ki, artıq bir neçə gündür banklarda yaşanan dollar qıtlığına da son qoyulub. İnsanlar rahat şəkildə banklardan dollar ala bilirlər.

**İqtisadçı ekspert Vüqar Bayramov "Yeni Müsavat"a bildirib ki, "üzən məzənnə"də kursun necə olacağını Mərkəzi Bank müəyyənləşdirmir:** "Çünki bu, liberal məzənnədirsə, o zaman bazar tərəfindən müəyyənləşdirilməlidir. Lakin son hərracların da nəticəsi göstərir ki, manatın dollara nisbətdə məzənnəsini Mərkəzi Bank müəyyənləşdirir. Mərkəzi Bank çalışır ki, bazarda manatın məzənnəsini daha tez formalaşdıra bilsin. Doğrudan da manatın bazar məzənnəsinin müəyyənləşməsi olduqca vacibdir. "Strateji Yol Xəritəsi"ndə 2017-ci il üçün nəzərdə tutulan fəaliyyətlərdən biri də məhz liberal məzənnəyə keçid və bazar kursunun məzənnəsinin müəyyənləşdirilməsi idi. Bazar məzənnəsini müəyyənləşdirmək ona görə vacibdir ki, bu baş verməyincə real sektora sərmayələrin cəlb edilməsi kifayət qədər çətin olacaq. Xarici investorlar əmin olmalıdırlar ki, bu, artıq bazar məzənnəsidir. Bazar məzənnəsi isə o deməkdir ki, əgər milli valyutanın bazar məzənnəsi müəyyənləşərsə, bu halda artıq müəyyən müddət manat həmin məzənnə ətrafında dəyişəcək".



Vüqar Bayramov

**Bir çox ekspertlər dollara nisbətdə 2 manatın psixoloji səviyyə olduğunu söyləyirlər. Real məzənnənin hansı həddə qərarlaşacağı barədə V. Bayramov bunları söylədi:** "Bazar məzənnəsini bazar özü müəyyənləşdirməlidir. Hansısa bir rəqəmi öncədən nə Mərkəzi Bank, nə də digər qurumlar rəsmiləşdirə bilməzlər. Burada ssenariyə də baxmaq lazımdır. Nəzərə alaq ki, Dövlət Neft Fondunun 2017-ci il üçün xərcləmələri 14.5 milyard manatdır, onun 7.5 milyard manatı birbaşa Mərkəzi Banka, 6.1 milyard manatı isə büdcəyə transfertlərdir. Mərkəzi Banka transfertlər hərraclar vasitəsilə bazara çıxarılarsa, o zaman Mərkəzi Bank psixoloji təzyiqi ciddi şəkildə azalda bilər. 14.5 milyard manat, 7.8 milyard dollara yaxın vəsaitdir. Bu da hərraclar vasitəsilə satılarsa, bununla da psixoloji təzyiqi azaltmaq olar. Ancaq o vəsaitin heç də hamısı hərraclar vasitəsilə təklif olunmazsa, o zaman psixoloji təzyiq yenə də qalacaq. Bu baxımdan, Mərkəzi Bankın hansı ssenarini seçməsi və hərraclara nə qədər vəsait çıxarması çox önəmlidir. Faktiki olaraq Mərkəzi Bank mövcud resurslardan istifadə edib, xüsusilə də Dövlət Neft Fondunun transfertlərindən faydalanmaqla praktik olaraq psixoloji təzyiqi azalda bilər. Bu isə növbəti dövrlərdə manatın bazar məzənnəsinin, eləcə də psixoloji təzyiqlərin həddini müəyyənləşdirər".

**Son zamanlar banklarda dollar qıtlığının aradan qalxması barədə danışan ekspert bunun səbəbinin də bəhs etdiyimiz transfertlər olduğunu bildirdi:** "Əgər bazar məzənnəsi müəyyənləşərsə, ölkədə "qara bazar" da mərhələli şəkildə ləğv ediləcək. Bu prosesin gedəcəyi gözləniləndir. "Qara bazar" ona görə yaranırdı ki, bank dollar satmırdı. İndi əgər banklar dollar satışını bərpa edəcəklərsə, o zaman faktiki olaraq bu, "qara bazar"ın aradan qaldırılmasına səbəb olacaq. Vətəndaşlar əgər rəsmi şəkildə banklardan pul ala biləcəklərsə, nə üçün qeyri-leqal yola baş vursunlar ki? Bankların son zamanlar dollar satışında problemlərinin olmamasının səbəbi odur ki, onlar hərrac vasitəsilə dollar alıblar. Konkret olaraq 300 milyon dollar çıxarıldıqdan sonra bankların dollar satışı bərpa edilməyə başladı. Əgər Mərkəzi Bank davamlı şəkildə Dövlət Neft Fondunun xətti ilə dollar satışını təşkil edəcəksə, o zaman banklarda da dollar satışını fasiləsiz şəkildə davam etdirmək mümkün olacaq. Banklarda dollar satışı birbaşa olaraq hərraclara çıxarılan valyutanın həcmindən asılıdır. Valyutanın həcmi az olursa, banklar dolları satmırlar, çox olursa, satırlar".

❑ **Əli RAİS**

**Ötən il dekabrın 19-da Ankarada bir sərgi salonunda öldürülən Rusiyanın Türkiyədəki səfiri Andrey Karlova qarşı terror üzrə istintaq davam edir. Türkiyə mediası daha iki nəfərin şübhəli şəxs qismində həbs olunduğunu yazır.**

# İstintaq rus səfiri öldürənin arxasındakı adamı axtarır

## Cinayətin məhz FETÖ tərəfindən sifariş edilməsi sübuta yetirilərsə, bu işin ABŞ kəşfiyyatı ilə bağlılığı iddiası ortaya atılacaq



Həbs olunanlardan biri polis əməkdaşıdır. Artıq onlar barəsində məhkəmə tərəfindən həbs-qətimkan tədbiri seçilib və cəzaçəkmə müəssisəsinə göndəriliblər. Polislər terror təşkilatına üzvlükdə ittiham olunurlar. Xəbərlərdə qeyd olunur ki, şübhəli polis əməkdaşları Sercan Başar və Hasan T. ilə yanaşı kiçik sahibkar Enes Asım Silim, vəkil Serkan Ö., universitet müəllimi Əbdülqadir Ş. da saxlanılıb. Ancaq ilkin ifadələri alındıqdan sonra Əbdülqadir Ş. azad edilib. Məhkəmə Sercan Başar və Enes Asım Silimin FETÖ üzvü olmaq ittihamı ilə barələrində həbs qərarı çıxarılıb.

İlkin araşdırmalara görə, polis əməkdaşı Sercan Başar polis məktəbində səfir Karlovun qatili Mevlüt Mert Altıntaşın "böyük qardaşı" olub. Bundan başqa, Altıntaşın ünvan olaraq göstərdiyi Ankaranın Demetevler rayonunda yerləşən ev də Sercan Başar tərəfindən kirayələnibmiş.

Xatırladaq ki, səfir Karlov dekabrın 19-da Ankaranın mərkəzində təşkil olunan sərginin açılışı zamanı nitq söyləyərkən öldürülüb. Qatil Çevik Polis Qüvvələrinin əməkdaşı 22 yaşlı Mevlüt Mert Altıntaş olub. Türkiyə xüsusi xidmət orqanlarına görə qatil FETÖ üzvü olub və iki ölkə münasibətlərinə zərbə vurmaq üçün qətlə yetirilib. İstintaqçılara görə qatilin cinayət zamanı Hələb şüarı səsləndirməsi və radikal islamçı qruplaşma üzvlərinin jestlərini təkrarlaması iz azdırmaq məqsədi daşıyır. Sui-qəsdin istintaqını Türkiyə tərəfi aparır, eyni zamanda Rusiya tərəfi də gedişatla bağlı məlumatlandırılır.

Ekspertlərə görə, bu qəsd Rusiyaya qarşı gizli kəşfiyyat savaşının bir epizodudur. İcraçının FETÖ və ya ən-Nusra üzvü (ikinci fikrə görə qatil bu qruplaşmanın üzvü olub - K.R) olması əsl məqsədə təsir etmir. Bu sui-qəsd Rusiyanın güclü dövlət imicini zədələmək, üstəlik, Rusiya ilə münasibətləri qaydaya salmağa çalışan rəsmi Ankaraya zərbə vurmaq məqsədi daşıyır. Rusların soyuqqanlı davranması, iki ölkə münasibətlərini zədələyəcək və ya qarşılıqlı ittihamlara səbəb olacaq ritorikaya yol verməməsi Moskvanın "daşın hardan atıldığını" bilməsi və ya ehtimal etməsi ilə bağlıdır. Ancaq qatilin hansı qruplaşma üzvü olması ilə bağlı həm Rusiya, həm də Türkiyədə birmənalı fikir yoxdur, hər iki qruplaşmanın adı səsləndirilir.

**Rusiya İstintaq Komitəsinin sədr müavini İqor Krasnov bir qədər əvvəl bildirib ki, istintaq hazırda bu qətli həyata keçirənin arxasında dayanan əsl sifarişçini tapmağa çalışır. "Kommersant" qəzetinə danışan Krasnov Rusiyada da səfirin öldürülməsi ilə bağlı cinayət işi açıldığını, türklərlə birlikdə istintaq apardıqlarını deyib. O deyib ki, indi əsas məsələ qatilin kimliyindən çox bu qətli sifariş edənlərdir:** "Çünki cinayəti təşkil edən, planını quran və ilham qaynağı qatil qədər təhlükəlidir. Qatil Karlovun arxasında dayanırdı, bizim vəzifəmiz isə qatilin arxasında kimin dayandığını tapmaqdır".

Cinayətin məhz FETÖ tərəfindən sifariş edilməsi sübuta yetirilərsə, bu işin ABŞ kəşfiyyatı ilə bağlılığı iddiası ortaya atılacaq. Çünki Türkiyə rəsmi dairələri də artıq FETÖ-nü ABŞ kəşfiyyatı ilə bağlı terror təşkilatı olaraq təqdim edir. Səfirə qarşı sui-qəsdin FETÖ ilə bağlılığının sübuta yetirilməsi bu hadisənin siyasi qalmaqala çevrilməsinə səbəb ola bilər. Bu səbəbdən də son zamanlar istintaq prosesi daha çox sakit qalmağa üstünlük verir.

❑ **KƏNAN**



# İŞİD-ə qoşulan azərbaycanlılar vətəndaşlıqdan çıxarılıb

**Mübariz Qurbanlı:** "Xaricdə terrorla məşğul olan Azərbaycan vətəndaşları avtomatik olaraq vətəndaşlığı itirmiş sayılırlar"

**"Trend" xəbər verir ki, bunu jurnalistlərə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. M.Qurbanlı bildirib ki, "Dini ekstremizm haqqında" Qanuna və referendumla konstitusiyaya edilən dəyişikliklərə əsasən, Azərbaycandan kənarda qeyri-qanuni silahlı birləşmələrdə, terror qruplarında iştirak edən şəxslərin ölkəyə girişi qadağan edilib.**

Dövlət Komitəsinin sədri qeyd edib ki, həmin şəxslər avtomatik olaraq vətəndaşlığı itirmiş sayılırlar: "Əgər bir adam öz ölkəsində deyil, xaricdə hansısa qeyri-qanuni silahlı dəstədə iştirak edirsə, terrorla məşğul olursa, cinayətlər törədirsə, həmin adam ölkəyə buraxılmır. Bu da qanuni bir addımdır".

# İsrail Lapşinə üzrxahlıq yazdırıb - blogger bağışlana bilər

## "Yeni Müsavat"ın yazdıqları təsdiqini tapır



**İsrail Azərbaycanın ekstradisiyasına hazırlaşdığı bloggerin Bakıdan üzr istəməsini, beləliklə, azadlığa buraxılmasını təklif edib. Bu barədə İsrailin "Haarets" qəzeti yazıb. Qəzet yazıb ki, İsrail rəsmiləri Lapşinin Bakıya məktub yazmasını, həm Qarabağa getdiyinə, həm Dağlıq Qarabağı "müstəqil dövlət" adlandırdığına, həm də Azərbaycandakı hakimiyyəti tənqid etdiyinə görə üzr istəməsini təklif ediblər.**

Blogger özü təkliflə razılaşıb və məktubun ilkin versiyasını artıq yazıb. Bakı da razılığını versə, A.Lapşinin həbsi haqda orderi ləğv edə, Belarusa müraciətini geri götürə bilər: "Təklif artıq Azərbaycan Xarici İşlər Nazirliyinə çatdırılıb. İsrail diplomatlarının sözlərinə görə, onlar Azərbaycana bu məsələni böyütməyin əhəmiyyətsiz olduğunu bildiriblər, üzrxahlıq məktubunun ən yaxşı yol olduğunu, həm Azərbaycan və Belarus, həm də Rusiya və İsrailə sərf etdiyini söyləyiblər".

Qəzetə müsahibə verən İsrail rəsmisinin dediyinə görə, Azərbaycan təklifi rədd etməyib, amma hələ ki cavab da verilməyib.

**Qeyd edək ki, Lapşin məsələsinin İsraillə Azərbaycan arasında problem yaratmaması üçün Azərbaycana üzrxahlıq məktubunun yazılacağı barədə təxminən bir həftə öncə politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirmişdi:** "Lapşinlə bağlı sonda İsraillə bir razılaşma əldə olunacaq. Artıq Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında da hiss olunurdu ki, əgər Aleksandr Lapşin Azərbaycandan rəsmi üzrə istəsə, üzrxaqlığını, səhv etdiyini, Dağlıq Qarabağın Azərbaycanın qanuni ərazisi olduğunu rəsmi ərizə yazaraq bildirsə, ona qarşı cinayət işinə xitam verilə bilər. Ona görə də, məncə, bu adamla bağlı İsraillə Azərbaycan arasında bir razılaşma olacaq. Azərbaycan qeyd olunan ərizənin yazılmasını tələb edəcək. İsrail də həmin vətəndaşı buna məcbur etməklə cinayət işinin ortadan qaldırılmasına nail olacaq". "Yeni Müsavat"ın politoloqa istinadən yaydığı xəbər artıq təsdiqini tapıb.

Bundan başqa, üzrxahlıq ideyası A.Lapşinin ailəsinə yardım edən israilli millət vəkili Ksenia Svetlova ilə Azərbaycan rəsmilərinin danışıqları zamanı da səslənibmiş. O zaman Bakı bloggerin ölkə rəhbərliyindən yazılı şəkildə üzr istəməsini tələb edib. Bununla belə, bloggerin o dəqiqə azadlığa buraxılmayacağını bildirib. A.Lapşinin həbsinin prinsip məsələsi olduğunu deyən Azərbaycan rəsmiləri onun yalnız Bakıya təhvil veriləndən sonra azad ediləcəyini söyləyiblər. Ancaq A.Lapşin Bakının vədinə əməl etməyəcəyindən qorxaraq, məktub yazmağa razılaşmayıbmış.

İsrail rəsmilərinin fikrincə, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun yanvarın 17-də A.Lapşinlə bağlı dedikləri məsələnin həllinə təkan verə bilər. S.Lavrov bloggerin ekstradisiyasına razı olmadığını söyləmişdi. Doğrudur, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov rus həmkarının bəyanatına cavabında A.Lapşinin həbsinin qanunauyğun olduğunu, qanunları bloggerin pozduğunu, Rusiyanın da belə durumlarda eyni mövqeyi tutduğunu deyib. Amma belə görünür ki, İsrail Rusiyanın həm Belarus, həm də Azərbaycan üzərində nüfuzunu nəzərə alaraq, problemin tezliklə həllinə inanır.

Xatırladaq ki, Rusiya və İsrail vətəndaşlığı olan 40 yaşlı Aleksandr Lapşin Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan işğal olunmuş ərazilərində yaşayan digər şəxslərlə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında", "Pasportlar haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərini kobud surətdə pozmaqla Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və nəzarət-buraxılış məntəqələrindən kənarda keçərək 2011-ci ilin aprel və 2012-ci ilin oktyabr aylarında işğal olunmuş ərazilərə daxil olmuşdu. Sonra isə qanunsuz rejimin beynəlxalq səviyyədə təbliğ edilməsi məqsədilə sosial şəbəkədə özünə məxsus "http//puerrtto.livejournal.com" səhifəsində səyahət etdiyi dövlətlər arasında Azərbaycan və Ermənistanla yanaşı Dağlıq Qarabağı da müstəqil dövlət kimi qeyd etməklə, həmçinin 6 aprel və 29 iyun 2016-cı il tarixli müraciətlərində işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyət göstərən rejimin "müstəqilliyini" dəstəkləməklə Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar edib.

Azərbaycan Baş Prokurorluğu A.Lapşinin bu hərəkətlərində dövlət əleyhinə yönələn açıq çağırışlar və dövlət sərhədini qanunsuz olaraq keçmə əməllərinin tərkib əlamətləri olduğundan Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlatmış və A.Lapşin barəsində dövlətlərarası axtarış elan edilmişdi. 2016-cı il 13 dekabrda A.Lapşin Belarusda Belarus Respublikası hüquq-mühafizə orqanlarının həyata keçirdikləri tədbirlər nəticəsində saxlanılıb və barəsində Minsk Məhkəməsinin qərarı ilə 2 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 13 (6627) 20 yanvar 2017

# Qəsəbənin kabusuna çevrilən "dəmir quşlar"

## Əməkdaşımız Bakı Hava Limanı yaxınlığında səksəkədə yaşayanların durumundan yazır; "Hər dəfə təyyarələr başımızın üstündən keçəndə..."











**Türkiyəyə məxsus yük təyyarəsinin Qırğızıstanda bir qəsəbə ərazisində qəzaya uğradığı barədə xəbər verilib. Ən son məlumata görə, qəza 37 nəfərin ölümünə səbəb olub. Onlardan 4-ü təyyarənin heyət üzvi, qalanları isə adıçəkilən ərazidə yaşayanlar olub.**

Hava limanlarının ətrafında yaşayış məntəqəsinin olması dəhşətli faciənin qurbanlarının sayının artması ilə nəticələnib. Olay zamanı həmçinin onlarla ev dağılıb. Bu xəbərin izi ilə biz də Bakıdakı oxşar vəziyyəti araşdırmaq qərarına gəldik. Görəsən, ölkəmizdə hava limanları salınarkən bütün bunlar gözə alınıbmı, yaşayış məntəqələri hava limanlarına nə qədər yaxındır və yaxın olması nə dərəcədə doğrudur? Bütün bu suallara aydınlıq gətirmək üçün Bakı Beynəlxalq Aeroportuna yaxın yaşayış məntəqələrində olub sakinlərlə görüşdük.

Binə qəsəbəsinin 2-ci yeni sahə hissəsində Beynəlxalq Hava Limanının yük və sərnişindaşıma təyyarələrinin yerləşdiyi ərazinin ətrafında onlarla yaşayış evi var. Ərazinin rəsmi adı olmasa, sakinlər buranı "Atçılıq" adlandırırlar. Burada yaşayanlar demək olar ki, hava limanı ilə qonşudur. Onları ayıran yalnız aradakı dəmir torlardır.

Evlərdən baxanda hava limanında hərəkət edən təyyarələri görmək mümkündür. Hava limanı yaşayış evlərinə yaxın olsa da, təyyarələr havaya qalxarkən yaşayış binalarının üzərindən keçmir. Uçuş zolağı yaşayış sahələrindən əks istiqamətdədir. Yəni uçuş əks tərəfə həyata keçirilir.

**Limanın bir addımlığında yaşayan ailələr əvvəllər bir çox problemlərlə qarşılaşsalar da, hazırda bu durumun aradan qalxdığını deyirlər:** "15 ilə yaxındır ki, "Atçılıq"da yaşayıram. Demək olar ki, hər gün onlarla təyyarə evimizin qarşısından keçir. Ancaq bunun hər hansı təhlükəsi yoxdur. Təyyarələr havaya qalxarkən xeyli uzaq məsafədən keçir. Biz yalnız onların səsini eşidə bilirik. Mən bildiyim qədər, 2-3 il olar ki, uçuş zolağını dəyişiblər. Əvvəllər vəziyyət fərqli idi. Təyyarənin səsindən evdə yaşamaq olmurdu. Hətta o qədər güclü səs olurdu ki, evlər titrəyirdi".

**Binə qəsəbəsindəki keçmiş hava limanı ("tolkuçka" adlanan ərazi) yaxınlığında yaşayanlar isə təyyarələr eniş etdiyi zaman qorxu hissi keçirdiklərini bildirdilər. Qəsəbə sakinlərinin dediyinə görə, təyyarələr hava limanına eniş edən zaman güclü səs onları vahiməyə salır. Onları qorxudan səbəb isə illər öncə baş verən hadisənin təkrarlanacağından ehtiyatlanmalıdır. Ərazidə məskunlaşan sakinlər narahatlıqlarını belə ifadə etdilər: "Təqribən 10 il əvvəl "İl-76" təyyarəsi uçuş zolağından çıxıb, yaşayış binaları üzərinə gəldi. Təsadüf nəticəsində qəzadan xilas olduq. Binə qəsəbəsində "Böyük məscid" adlanan məscid var, az qala onun üstünə çırpılacaqdı. Məscidlə 30-40 metr məsafəsi var idi. Çırpılmağa az qalmış, sanki pilotlar yuxudan ayıldılar. Birtəhər təyyarəni döndərib, Aviasiya Akademiyasına tərəf yönəltdilər. Ancaq təyyarə sağa-sola əyildi, qəza vəziyyəti yarandı. Xoşbəxtlikdən idarəetməni əldə saxladılar. Təyyarə yerə olduqca yaxın məsafədən eniş etdiyi üçün bizə çox həyəcan yaşatdı. Hər dəfə təyyarələr başımızın üstündən keçəndə içimizdəki qorxunu boğmağa çalışırıq".**

Adının çəkilməsini istəməyən şəxs isə təyyarələrdən çıxan tüstünün havanı çirkləndirdiyini dedi: "Təyyarələr yaşayış evlərinin üzərindən keçən zaman ətrafa mazut qoxusu yayılır. Təsəvvür edin ki, gün ərzində onlarla sərnişin və yük təyyarəsi eniş edir. Eniş edərkən ətrafa pis qoxu yayılır. O qədər yaxın keçir ki, yaxın ətrafda hava zəhər olur. Bildiyimiz qədər, dünya praktikasında hava limanları yaşayış məntəqələrindən kənarda yerləşir. Bir neçə il öncə söhbət gəzirdi ki, buranın sakinlərinə kompensasiya veriləcək və evlər köçürüləcək. Ancaq bu elə söz olaraq qaldı".

**Sakinlərin sözlərinə görə, əsas problemlərdən biri də radarlardan ətrafa yayılan radiasiyadır:** "Təyyarələrin güclü radarları var ki, bu da insanların səhhəti üçün təhlükəlidir. Radarların güclü şüalanması ən çox azyaşlı uşaqlar üçün təhlükəli hesab olunur. Xüsusən də gecə uçuşları zamanı dəhşətli dərəcədə səs-küy olur. Ölkə başçısı bütün bunları nəzərə alaraq, təqribən 5-6 il əvvəl sərəncam vermişdi ki, gecə saat 12-dən sonra təyyarə uçmasın. Bir müddət bu qaydalara əmək etdilər, lakin sonra yenidən gecə uçuşlarını davam etdirdilər. Yay vaxtı pəncərələr açıq olduğundan təyyarələrin səsindən evdə oturmaq olmur. Bir ara söhbət gəzirdi ki, radiasiya və səs-küyə görə yaxınlıqda yaşayan əhaliyə kompensasiya verib köçürəcəklər. Ancaq indi bu haqda danışan yoxdur".

Qəsəbədə olarkən özümüz də təyyarələr eniş edərkən çıxan səs-küyün şahidi olduq. Sakinlərin yaşadığı digər problemlər bir yana, məhz hava limanına yaxın olması səbəbindən buranı insan həyatı üçün təhlükəli ərazi hesab etmək olar.

❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



# "Nar"ın "Təlim məktəbi" layihəsi çərçivəsindəki kursların ilk mərhələsi uğurla başa çatdı

Gəlin birlikdə böyüyək

**"Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində həyata keçirilən və mobil operatorun nitq və eşitmə məhdudiyyətli vətəndaşların cəmiyyətə inteqrasiya etdirilməsinə davamlı dəstək konsepsiyasının bir hissəsi olan "Təlim məktəbi" layihəsinin ilk mərhələsi başa çatdı. "Uğur akademiyası" və "Asan könüllüləri gənclər təşkilatı" ictimai birliyi ilə birgə "Həyat bizimlə daha rəngarəng" şüarı altında reallaşdırılan layihə çərçivəsində 7 noyabr 2016-cı il tarixində dərslərə başlamış nitq və eşitmə imkanları məhdud vətəndaşlardan ibarət ilk qrup kursları uğurla başa vurdu.**

**75 nəfərədək nitq və eşitmə məhdudiyyətli gəncin iştirakı nəzərdə tutulmuş kurslar "Təlim məktəbi" layihəsinə görə tədrisi planlaşdırılmış üç istiqamətdən biri olan dizayn proqramları ixtisası üzrə start götürmüşdü. Qeyd edək ki, təlimlər nitq və eşitmə məhdudiyyəti olan gənclər üçün xüsusi tərcüməçi vasitəsilə reallaşdırılırdı. Kursun rəhbəri bu sahə üzrə peşəkar mütəxəssis olan Günay Əmirova oldu.**

**Eyni zamanda, layihə heyəti tərəfindən dəvət olunmuş psixoloq tərəfindən kurs iştirakçılarının peşə potensialları qiymətləndirildi, həftə ərzində təşkil olunmuş mütəmadi görüşlərdə özünə inam və motivasiyanın artırılmasında onlara yardım göstərildi.**

**Dizayn proqramları ixtisası üzrə təşkil edilmiş kursların iştirakçıları olan gənclər dərsləri müvəffəqiyyətlə başa vuraraq, müvafiq sertifikatlarla təltif edildilər. "Uğur akademiyası"nın həmtəsisçisi Cavid Şahmalıyev layihənin əlilliyi olan insanların cəmiyyətə qazandırılması istiqamətində atılmış daha bir uğurlu addım olduğunu vurğuladı.**

**"Sosial məsuliyyət hissindən irəli gələn bu kimi təqdirəlayiq layihələr cəmiyyətin inkişafına misilsiz töhfə verməkdədir. "Nar" operatoru tərəfindən dəstəklənən bu təşəbbüs Azərbaycanın işgüzar mühitində gözəl bir nümunə oldu", - deyə o, sözlərinə əlavə etdi.**

**Xatırladaq ki, "Nar" artıq 3 ildir özünün KSM strategiyası çərçivəsində fiziki məhdudiyyətli Azərbaycan vətəndaşlarının cəmiyyətə qazandırılması istiqamətində müxtəlif addımlar atır. Bu istiqamətdə bir çox sosial layihələr həyata keçirmiş mobil operator həmçinin 11 nəfər ünsiyyət məhdudiyyətli vətəndaşı işlə təmin edərək, Azərbaycanın biznes mühitində parlaq nümunə göstərmişdir. "Nar" özünün müvafiq konsepsiyasına uyğun olaraq, gələcəkdə də bənzər layihələrə imza atmağı və bu kimi təşəbbüslərə davamlı dəstək verməyi nəzərdə tutur.**

**"Nar" KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az saytından əldə etmək olar.**




Cümə söhbətləri

# Həqiqi kamalın 3 ünsürü

**Bismilləhir-Rahmənir-Rahim! İnsanın daxilində fövqəladə güclü bir hiss var. Bu hiss - kamala, aliliyə, üstünlüyə, gözəlliyə can atmaq hissidir. Bu, əslində insanın təbii bir hissidir. Lakin, insan gərək bu kamalı, alini düzgün müəyyən etsin və ona doğru hərəkət etsin.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Həqiqi kamal nədir?

Həzrət İmam Baqir (ə) buyurur: "Həqiqi kamal - dini başa düşmək, ağır bəla müqabilində dözüm və məişətində əndazəni saxlamaqdan ibarətdir". Əziz Məsumun (ə) buyuruşundan belə anlaşılır ki, həqiqi kamalın birinci şərti - dini başa düşməkdir. Kamalın ən bünövrəvi məsələsi - dini başa düşməkdir. Adam dini başa düşməsə, dünyagörüşü olmaz, dini başa düşməsə, bünövrəli yaşayışı, mövcudiyyəti olmaz. Ona görə də, insan dini başa düşməyə can atmalıdır. Dini başa düşmək - haradan gəldiyini, harada olduğunu, haraya gedəcəyini, nə etməli olduğunu başa düşməkdir. Eyni zamanda buraya dinin əxlaqiyyətini dərk etmək də daxildir. İnsan dinini nə qədər çox başa düşsə, bir o qədər kamala gedib çatar. Ona görə də dini başa düşmək fövqəl dərəcədə önəmlidir. Bizlər gərək həyatımızın, ömrümüzün bir hissəsini bu məsələyə həsr edək. Çünki, dinimizi bilməsək, əməl etməyəcəyik.

İnsanın həyatında müsibətlərlə qarşılaşması labüd bir məsələdir. İnsanın gözlədiyi və gözləmədiyi, ağlına gələn və gəlməyən, ehtimalını belə verməmdiyi, növbənöv müsibətlərlə qarşılaşması bu dünya həyatının əsas xüsusiyyətlərindəndir. Bu dünya həyatı mahiyyət etibarilə imtahanlar, sınaqlar, bəla və müsibətlərdən ibarətdir. Bizlər gərək onların qarşısında dayana bilməyəcəyimiz, onları qarşılamağa gücümüz yetməyəcəyi müsibətlərdən Allaha pənah aparaq. Bu, yanlış yanaşmadır ki, insan Allahdan hər formada müsibətlərlə imtahan edilməsini istəsin. Elə müsibətlərlə qarşılaşar ki, onlara səbir və dözüm göstərə bilməz. Kamal xüsusiyyətlərdən biri budur ki, insan müsibətlərlə qarşılaşan zaman onları qarşılamağa dözümü olsun.

Məişətdə əndazəni saxlamaq - kamalın üçüncü önəmli şərtidir. İnsan gərək gündəlik həyatında mötədilliyə riayət etsin. Mötədilliyin başlıca xüsusiyyəti isə orta xətti tapmaqdır, yəni, nə israfa yol verməк, nə də xəsislik etmək. İnsan bunu edə bilsə, həqiqi kamala doğru hərəkət edə bilər.

## Bu kəslər Qiyamətdə ali məqamlara çatacaq

Gərək bizlər kamalın bu üç şərtinin hər birinə mübarək İslami mətnlərdə yer alan yanaşmaya diqqət ayıraq. Dinlə bağlı əziz Həzrət Əlinin (ə) mübarək buyuruşu var. Həzrət (ə) buyurur: **"Dindarlıqda incəlikləri görən və dəqiq olan kəs, Qiyamət günü ali məqam sahibi olar"**. Bizlər gərək dindarlıqda incəlikləri görməyi bacaraq. Yəni mübarək dinimizi yaşayarkən buyurulan məsələlələrə səthi yanaşmayaq. Gərək, bizlər dindarlığın ruhunu, məğzini anlayaq. Misal üçün, insanlar Kərbəla ziyarətinə gedir. Burada iki cür zəvvar ola bilər. Birinci zəvvar baxır, İmam Hüseynin (ə) zəvvarlarının çox olmasına sevinir, bu zəvvarlarla birlikdə növbələrdə dayanmaqdan zövq alır. Bu kəs dindarlığın incəliklərindən xəbərdardır.

Bir zəvvar da düşünə bilər ki, insan izdihamının çoxluğu səbəbindən rahat ziyarət edə bilməyib. Bəzən insan anlamır ki, elə növbədə dayanmağın özü də Həzrət İmam Hüseynin (ə) ziyarətidir. Əgər insan dininin ruhunu anlasa, başa düşər ki, bütün bu yolda göstərdiyi fədakarlıqlar onu Allaha yaxınlaşdırır. Deməli, bizlər gərək ilk öncə dinimizin incəliklərini tanıyaq və bu dində dəqiq olaq. Bəzən bu cür insan dəli kimi, divanə kimi görsənə bilər. Həzrət Əli (ə) məlum xütbəsində müttəqilərin xüsusiyyətlərini sayanda, onların bir xüsusiyyəti kimi həm də bəzən toplumda divanə kimi görsənmələrini də vurğulayır.

Toplum deyir ki, sən gərək təkəbbürlü olasan, səhvini boynuna almayasan, hamıya "həqiqəti başa salasan". Din isə deyir ki, sən məişət məsələlərində haqlı olanda belə, geri çəkilməyi bacar, güzəştli ol. Bizim həyatımızda yaranan yüz problemi məsələdən bəlkə biri və ya ikisi ictimai xarakterli olur. Ola bilər ki, kiminləsə bizim düşmənçiliyimiz, ədavətimiz, problemlərimiz İslamın ictimai məsələləri, təvəlla-təbərra mövzuları ilə bağlıdır. Adətən insanın gündəlik həyatında münaqişələri, problemləri məişət zəminində olur. Bütün bu məsələlərdə də dinimiz güzəştli olmağa çağırır. Dinin incəliklərini tanımaq budur. Əgər bizlər dinimizin incəliklərini tanısaq və dəqiq olsaq, Qiyamət günündə ali məqam sahiblərindən olarıq.

## Ölümü yadan salan insan üçün bu dünyanın müsibətləri çox asan olar

Müsibətlərlə bağlı Həzrət Əlinin (ə) çox nurani bir buyuruşu var. Həzrət Əmirəlmöminin (ə) buyurur: **"Ölümü - qəbirdən qalxıb Allah qarşısında dayanacağınız günü çox yad edin ki, müsibətlər sizə asan olsun"**. Bizim bütün faciələrimiz, müsibətlərimiz, məsələlərimiz ona görə ağır vəziyyətdədir ki, bizlər elə bilirik ki, hələ uzun müddət burada olacağıq. Bir anlıq insan təsəvvür etsə ki, artıq bu dünyada yoxdur - burada ona çətin görsənən, müsibətli, ağır görsənən məsələlər bitir. Möminlərin ən böyük dəyəri ona görədir ki, onlar bütün məsələlərin bu dünya ilə bitmədiyinə, yekunlaşmadığına inanır, bir gün Qiyamətin olacağına, əbədi həyatın oradan başlayacağına inanır.

Bu il 30 milyona qədər zəvvar Ərbəin ziyarətinə yollandı. Onların dəyəri həm də ona görə idi ki, təkfirçilərin bütün təhdidlərini, mümkün təhlükələri gözə alaraq, bu yola qədəm qoyurdular. 30 milyon insan bu davranışı ilə bəyan edir ki, bizlər Mövlanın (ə.f) zühurunun hazırlığında iştirak edirik.

İnsan həqiqi kamala yetişmək üçün gərək daim ölümü xatırlasın. Ölümü xatırlayarkən digər məsələlər o qədər kiçik görünür ki, bütün məişət xarakterli məsələlər mənasını itirir. Ancaq Allah üçün olan məsələlərin bizlərə bir xeyri dəyəcək.

## Allah mötədil kəsi imkanlı edər

Həqiqi kamala yetişmək üçün üçüncü önəmli şərt də mötədillikdir. Həzrət Rəsulallah (s) buyurur: **"Kim mötədil olsa, Allah onu imkanlı edər"**. Mötədil olmaq budur ki, insan nə ifrat etsin, nə də təfrit. Bizlər çox zaman həyatımızda ya ifrat edirik, ya da təfrit. Ya cibimizdə nə pul varsa hamısını xərcləyirik, ya da cibimizdən bir mananın da çıxmasına razı olmuruq. Ya olanımızın hamısını nəyə gəldi xərcləməyə çalışırıq, ya da olanımızından bir manat belə xərcləməyə əlimiz gəlmir. Bunların hər ikisi pisdir.

Mötədillik budur ki, insan Allahın ona vermiş olduğu ruzini etidalla, mötədilliklə xərcləsin.

## Peyğəmbərlərin (ə) xüsusiyyətlərinə yaxınlaşdıran cəhət

Həzrət Peyğəmbər (s) buyurur: **"Mötədillik, gözəl yanaşma, düzgün və bəyənilmiş üsluba malik olmaq - peyğəmbərliyin iyirmidən bir hissəsindən artıqdır"**. Yəni mötədil olan insan, peyğəmbərlik xüsusiyyətlərinin iyirmidə bir hissəsindən artığına malik olar. Mötədillik Allah yanında bu qədər dəyərli və sevimli xüsusiyyətdir. O qədər əzizdir ki, bu xüsusiyyətə malik olmaq, insanı peyğəmbərlərin (ə) xüsusiyyətlərinə yaxınlaşdırar. Söhbət yalnız xərclərdə mötədil olmaqdan da getmir. Bütün yanaşmalarda mötədil olmaq önəmli şərtdir. İnsan mötədilliyi öz halı ilə bağlı da yaşamalıdır. Əgər insanın əhvalı pisdirsə və ya aqibəti ilə bağlı müşkülləri varsa, gərək insanların içərisində bunu büruzə verib, onların da halını korlamasın. Gərək insanların içərisində üzügülər, xoş əhval-ruhiyyədə, Allahla öz arasında olanda isə halına uyğun vəziyyətdə olsun. Dünyaya görə də əhvalın korlanmasının mənası yoxdur. Müsibətlərimiz, ağrılarımız, kədərlərimiz əgər aqibətə görədirsə - bu, çox yaxşı haldır, lakin gərək yenə də bunu təklikdə yaşayaq. Əgər dünyaya görədirsə, dünyaya görə əhvalsız olmağın mənası yoxdur.

Deməli, mötədillik hər bir məsələyə aiddir. Dərs oxumağa da aiddir. Adam ya dərs oxumur, ya da elə oxuyur ki, bütün hər kəsin günü qara olur. Təmizliyə riayət etmək də o cürdür. Adamlar var ki, təmizliyə riayət etmir və ya böyük israfçılıq, vəsvəsə ilə təmizlik edir. İnsanlar ya geyimlərinə heç diqqət etmir, necə gəldi geyinir, ya da normal olan geyimləri də bəyənmir, onları da geyinmək istəmir. Bir zamanlar ümumiyyətlə dini mühitə də bu xəstəlik sirayət etmişdi ki, dindar elə necə gəldi geyinə bilən kəsdir.

## Əgər insan dinin ruhunu anlasa, bütün məsələlər həll olar.

Hədisdə keçən üslub da İslamın çox önəmli mövzularından biridir. Hər birimizin İslamın perfomansı ilə bağlı üslubumuzla bağlıdır mövzu. İnsanların din tanımaqla bağlı problemi yoxdur, bizim camaata dini çatdırma üslubumuzda problem var. Üslub - fövqəl dərəcədə önəmli olan məsələdir.

Həzrət İmam Həsən Əsgəri (ə) buyurur: **"Mötədilliyin bir əndazəsi var. Əgər ondan aşılsa, xəsislik olar"**. Deməli, mötədil olarkən insan gərək diqqətli olsun ki, ifrata getməsin. Çünki, İmam (ə) xəbərdar edir ki, mötədillikdən bir qədər o tərəfə - artıq xəsislikdir. Eyni zamanda bir qədər təfrit yanaşma da insanı israfa gətirib çıxara bilər.

## Dinimizin bahalığa yanaşması birmənalı mənfidir

Xüsusilə dövrümüzün ən ciddi mövzularından biri - bahalıqdır. Dinimizin bahalığa yanaşması birmənalı şəkildə mənfidir. İnancımız bahalığı birmənalı olaraq pisləyir. Həzrət İmam Sadiq (ə) buyurur: **"Qiymətlərin bahalaşması insanların əxlaqını və davranışlarını pis edir, əmanətdarlığı aradan aparır və müsəlman camaatı sıxıntıya salır"**. Bahalıqla insanların əxlaq və davranışlarının pisləşməsinin əlaqəsi var. Deməli, möminlər, iman əhli, şüurlu insanlar can atmalıdırlar ki, toplumda bahalıq olmasın. Çünki bahalıq həm də insanların əxlaqını zay edir, davranışlarını pisləşdirir. Xüsusilə əmanətdarlığın aradan getməsi toplumlar üçün ən acınacaqlı bir haldır. Bahalıq, müsəlman camaatın sıxıntıya düşməsinə səbəb olur.

Bahalıq o qədər pis bir məsələdir ki, hətta onu arzulamaq belə inancımızda pislənilir. Tutaq ki, bir insan gecə vaxtı bu və ya digər səbəbdən bahalıq olmasını arzulasa, özünü məhv etmiş olar. Həzrət Rəsulallah (s) buyurur: **"Hər kəs bir gecədə ümmətim üçün bahalıq arzu edərsə, Allah Təala onun qırx illik əməlini aradan aparar"**. Oturub sadəcə insanlar üçün bahalıq arzu etmənin cəzası bu qədərdir. Hansı sahədə olmasından asılı olmayaraq, imanı olan insanlar diqqətli olmalıdır ki, bahalığın olmasına səbəb və vasitə olmasınlar.

Eyni zamanda bahalığa hər hansı formada bəraət qazandırmaq da olmaz. Bahalığa bəraət qazandıran insan öz imanını yandırar. Qələm əhli, ekspert, xüsusilə dindarlar əgər bahalığa, insanların həyatının ağırlaşmasına bəraət qazandırsa, vay olar həmin kəsin halına.

Bəzən belə yanlış nəsnələr topluma təlqin edilir ki, dinimiz bütün mənalarda səbirli davranışı tövsiyə edir. Dinimizin səbirlə bağlı yanaşması yalnız obyektiv şəraitlərə aiddir. Hədislərdən də göründüyü kimi, bahalıq yalnız bir iqtisadi məsələ deyil, həm də inanc məsələsidir. Bahalıq toplumda əxlaqı pisləşdirir, davranışları korlayır, əmanətdarlığı aradan aparır, insanları sıxıntıya salır. Hətta bunu arzulamaq belə, insanı ağır vəziyyətə gətirib çıxarır.

**Allahım, aqibətlərimizi xeyirli et! Bizlərə dini başa düşməyi, müsibətlər müqabilində səbri və məişətdə mötədil davranışı nəsib et!**

**Allahım, millətimizə bol ruzi və bərəkətlər nəsib et! Hər bir çətinlik və sınaqlardan ləyaqətlə çıxmağı bizlərə nəsib et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 13 (6627) 20 yanvar 2017

BUSINESS INSIDER

## Narsistləri işə götürsəniz... başınıza bu gələcək

**"Business İnsider" adlı jurnal iş adamlarına işə götürəcəkləri insanları ciddi şəxsiyyət testindən keçirməyi tövsiyə edib. Xüsusən də 3 növ xarakterin yaxşı işləyən bir komandada böyük narahatçılıqlara səbəb ola biləcəyi bildirilib. Bu xarakterlərdən birincisi narsistlərdir. Özünə vurğun, çevrəsindəki insanları manipulyasiya edən, daim kompliment gözləyən, səhvlərini qəbul etməyən və "biz" yerinə "mən" sözünü tərcih edən şəxslər iş yerindəki digər yoldaşlarının faydalılıq əmsalını 60 faizə qədər azaldır. Qeyri-sosial şəxslər isə ikinci kateqoriyaya aiddir. Onların da varlığı kölgə kimidir, ancaq deyilənləri yerinə yetirirlər. Yaradıcılıq səviyyəsi aşağı olan, ağzındakı sözü kəlbətinlə çıxardığımız adamlar da komandada işlərin yavaşlamasına səbəb olur. Üçüncü tip arzuolunmaz işçilər isə hədsiz sentimental olanlardır. Onlar ilk başda çox sevimli görünsələr də, komanda çalışmasında daim şikayət edir, qaydalara riayət etmir və buna hər zaman bir səbəb tapır. Bundan başqa, bu tiplər hər zaman pessimist və tez bir zamanda qapını vurub gedə biləcək bir əhvala sahibdilər.**

## Gəlin toyuna traktorla, bəy yük maşını ilə gəldi

**İrlandiyanın Monaxan şəhər sakini öz toyuna traktorla gəlib. Üstəlik, traktoru idarə edən də özü olub. Bu barədə yerli mətbuat xəbər verir. Eslinq Qrem adlı qadın eyni zamanda gəlinin rəfiqələri üçün də traktor kirayələyib. O, fermerlər ailəsində böyüyüb və 8 yaşından məhz bu maşını idarə edib.**



"Mən öz toy paltarımı çox tez geyindim. Çünki evə yaxınlaşan traktorların səsini eşidirdim, onları tez görmək istəyirdim". Onunla paralel olaraq, bəy Qrem və onun şahidləri də toya yük maşınında gəliblər. 2016-cı ilin dekabrında isə bundan da ilginc toy hekayəsi olmuşdu. Belə ki, Çinin Siçuan əyalətində bir kişi sevdiyi qız gəlinlik paltarında özünü buluda oxşadıb, onu geyinmədiyi üçün özü gəlin paltarı geyinmişdi.

## Bu robot uşaqla top oynaya bilir

**Disney şirkəti top atmağı bacaran robotlar istehsal edib. Bu, uşaqların diqqətindən yayınıb özünə vaxt ayırmaqda valideynlərə kömək göstərən androiddir. Söhbət robotqayırma sahəsində yenilikdən gedir. Əlbəttə, hazırda insanı, məsələn, uşaq üçün valideyni tamamilə əvəz edə bilən robotlar var. Lakin məşhur şirkət bu sahədə bir az da irəliləyərək uşaqlarla və yeniyetmələrlə populyar "topu at" oyununu oynaya bilən android yaradıb.**

Yeni robot topu sizə atır və siz onu geri tullayanda, robot onu tapıb qeydə alır və tutur. Robot Kinect texnologiyasından istifadə edir və düz ona atılan əşyanın trayektoriyasını izləyir, beləliklə, topu bir əli ilə tuta bilir. Robot topu tutanda öz əlinə baxır. O, çox diqqətlidir: digər oyunçunun hərəkət istiqamətini izləmək üçün xüsusi qurğusu vardır. Buna görə də o, həmişə üzünü oyundakı tərəfdaşına çevirir.





## 18-ci dəfə inauqurasiya mərasiminə qatılacaq

**Amerikanın Nyu-Cersi ştatının sakini 18-ci dəfə ölkə prezidentinin inauqurasiya mərasiminə qatılacaq. Bu barədə lenta.ru saytı NBC-yə istinadən xəbər verir. 91 yaşlı Harold Smik ilk dəfə inauqurasiya mərasiminə 1941-ci ilin 20 yanvarında dəvət olunub. Həmin vaxt onun 15 yaşı var idi. Onda dövlət başçısı üçüncü dəfə Franklin Ruzvelt seçilmişdi.**

Xəbərdə həmçinin qeyd olunur ki, Smik seçkilər zamanı Donald Trampa yox, demokratların namizədi Hillari Klintona səs versə də, inauqurasiya mərasiminə qatılacaq. Xatırladaq ki, tədbir 20 yanvarda, Vaşinqtondakı Konqres binasının yanında keçiriləcək. Yanvar ayının əvvəllərində xəbər yayılmışdı ki, inauqurasiyadan bir neçə gün öncə sosial şəbəkələrdə tədbirə pulsuz bilet əldə etmək üçün reklam kampaniyası aparılırdı.




**QOÇ** - Yalnız maliyyə işlərinizdə müəyyən geriləmə mümkündür. Qalan məsələlərdə isə sevindirici məqamlarınız çox olacaq. Qohum-qonşularla, eləcə də həmkarlarınızla mehriban olun.

**BUĞA** - Səhhətinizdəki nasazlığa dözə bilsəniz, bu təqvimin ümumi çalarları ürəyinizcə olacaq. Hətta nahar ərəfəsində şəxsi büdcənizdə artım da gözlənilir. Açıq havada çox durmayın.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvimdə ehtiyatlı olmalısınız. Bir məsəldə deyilmişkən, "soyuq su da dodağınızı yandıra bilər". Bunun üçün ilk növbədə riskli hərəkətlərdən, tələsik qərarlardan uzaq olun.

**XƏRÇƏNG** - Zodiak işarələri arasında yeni işlərə başlamaq üçün daha çox sizin bəxtiniz gətirə bilər. Nəzərə alın ki, bu gündən etibarən uzun müddət qarşınızda sipər olan qapılar açılacaq.

**ŞİR** - İmkan daxilində oturaq işlərdən uzaqlaşmalı, səyyar fəaliyyətlə məşğul olmalısınız. Qarşılıqlı münasibətlərdə isə hər şey ürəyinizcə olacaq. Vaxt tapıb qohum ziyarətinə də gedin.

**QIZ** - Bir tərəfdən səhhətinizdəki nasazlıq, digər tərəfdənsə işlərinizin ləng inkişafı sizdə çaşqınlıq yarada bilər. Özünüzü itirməyin. Sövdələşmələrdə risk etməyə dəyməz.

**TƏRƏZİ** - Əməkdaşlıq zəminində bəxtiniz gətirə bilər. Çünki ulduzların düzümü istənilən sövdələşmədən xeyir qazanacağınızı bəyan edir. Xüsusən də günün ikinci yarısı sürprizləriniz olacaq.

**ƏQRƏB** - Müəyyən məziyyətlərinə görə gərgin gündür. Az qala hər tərəfdən sizə maneələr olacaq. Özünüzdə təpər tapıb hər havaya oynamayın. Saat 15-dən sonra vəziyyətiniz sabitləşəcək.

**OXATAN** - Dəstəyə ehtiyacınızın olduğunu nəzərə alan ulduzlar bu gün sizə kömək göstərəcək. Öz növbənizdə siz də aktivlik göstərməlisiniz. Saat 14-dən sonra daha cəsarətli addımlar atın.

**OĞLAQ** - Qarşınızda duran bu təqvimdə hamıdan şanslı olacağınız gözlənilir. Varlanma ehtimalınız da var. Amma uzaq səfərlərə çıxmaq üçün əlverişli ərəfə deyil. Axşam qonaq getmək olar.

**SUTÖKƏN** - Artıq bu gündən öz bürcünüz "hakimiyyətə" gəlib. Bu isə hamıdan enerjili və şanslı olacağınıza stimul verəcək. Konkret olaraq bu gün əlaqələrə və qazanca diqqət ayırmalısınız.

**BALIQLAR** - Havaların dəyişkənliyi sizin üçün o qədər də səmərəli deyil. Bu səbəbdən diqqətli və alicənab olmalısınız. Yeni təkliflər aldığınız təqdirdə imtina etməyə tələsməməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Amerikanlar daha şəkərli içki içməyəcək



**Nyu-York şəhərində restoran və kinoteatrlarda böyük ölçüdə şəkərli içkilərin satışına mart ayından etibarən məhdudlaşma gətirilir. Şəhərin səhiyyə idarəsinin rəhbəri Thomas Farley deyib ki, şəkərli içkilər şişmanlığın ən böyük qaynağıdır. Bununla belə, sözügedən qadağa mağazaları əhatə etmədiyi üçün bu aksiyanın böyük effekt verəcəyi gözlənilmir. Amma amerikalı həkimlər ümid edir ki, bu yasaq sayəsində insanlar az da olsa, daha normal qidalanma vərdişinə yiyələnəcək. Amerika şişmanlığın aradan qaldırılması üçün silsilə planlar qurur. Çünki şişmanlıq bir çox xəstəliklərin də carçısıdır.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.980

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.